# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Zəngəzur dəhlizi Cənubi Qafqazda yeni iqtisadi-siyasi reallığın əsas dayağıdır"**



7

№ 188 (7356)

SƏS

15 oktyabr 2025-ci il.
Qiymıəti 60 qəpik

# Regionda lider, dünyada böyük aktor



3

**Sülh sammitində dünyanın ən güclüləri sırasında Azərbaycan da var**

# Taliban borcunu necə qaytarır?

Əfqanıstan-Pakistan qarşıdurmasında Hindistan izi



11

**Görünməz qəhrəmanlar: kənd qadınları**




9

**"Mədəni" evlilik, "sivil" ailə, "vətəndaş" nikahı və atasız uşaqlar**



13

**Supermarketlərin qiymət oyunu: fırıldaq, yoxsa məsuliyyətsizlik?**



16

**Dünya sürətlə yoxsullaşır - BMT xəbərdarlıq etdi!**



16

**Soyunan müğənnilərin soyundurduğu mahnılarımız**



7

# Xalqın etimadını doğruldan QALİB LİDER, BÖYÜK SƏRKƏRDƏ

## Prezident İlham Əliyev: "Bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik"



Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 22 il ərizində nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyəti və milli maraqlara söykənən daxili və xarici siyasəti nəticəsində ölkəmiz güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan dövlətə çevrilib. Dövlət siyasətinin müasir modelini yaradan Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısının yerinə yetirilməsinə nail olmuşdur. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək, namizədliyini siyasi varisi Cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərkən bildirmişdi: ”İnanıram ki, Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Keçirilən seçkilərində seçicilərin 76 faizdən çoxu Cənab İlham Əliyevin lehinə səs verdi və 2003-cü il oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı seçilməsindən ötən dövr ərizində ölkəmizin qazandığı uğurlar hər bir vətəndaşın diqqətindədir. 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində xalqımız Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına, əmin-amanlığa, tərəqqiyə və quruculuğa səs verdi. Azərbaycan tarixinin səhifəsinə yazılan 7 fevral 2024-cü il ölkəmizdə keçirilən növbədənkənar prezident seçkiləri müdrik xalqımızın yekdilliyi ilə, həmrəyliyi ilə yeni tariximizə möhrünü vurdu. Hamılıqla, həmrəyliklə hər kəs seçki məntəqələrinə üz tutaraq öz tarixi seçimini edərək bir daha inkişafa, tərəqqiyə, sabitliyə, əmin-amanlığa səs verdilər. Bu səs Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasətə verilən səs idi. Bu seçkilər Azərbaycan üçün tam bir demokratik bayram oldu. İlk dəfə seçkilər Azərbaycanın bütün ərazilərində keçirildi. Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artıraraq, xalqın güzəranını və rifahını dönmədən yüksəldərək, ərazi bütövlüyümüzü təmin edərək və suverenliyimizə imza ataraq xalqın alternativsiz Liderinə çevrilib. Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır.

### ”BUNDAN SONRA DA AZƏRBAYCANIN HƏRTƏRƏFLİ İNKİŞAFI, ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜN QORUNMASI ÜÇÜN ƏLİMDƏN GƏLƏNİ ƏSİRGƏMƏYƏCƏYƏM”

Bu gün Azərbaycanın uğurlarından əminliklə söz açarkən qeyd etməliyik ki, bütün sahələrdə əldə olunan nailiyyətlərin kökündə müdrik siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır. Reallaşan kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləri sırasında olan amillərdir. Azərbaycanın dinamik inkişafının göstəriciləri sırasında ardıcıl həyata keçirilən islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilib, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılıb. Dövlət başçısının dəfələrlə bəyan etdiyi kimi, ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır. Ölkəmizdə sosial sahədə həyata keçirilən islahatlar miqyasına görə heç bir ölkədə müşahidə olunmur. Şəhid ailələrinə, müharibə veteranlarına, əlillərə dövlətimizin diqqət və qayğısı davamlıdır. Ölkəmizin istənilən bir sahəsində uğurları görmək mümkündür ki, bu da insanların firavanlığının təminində mühüm rola malikdir. Görülən işlər deməyə əsas verir ki, Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti oldu və xalqın etimadını doğrultdu.

Azərbaycan üçün artıq yeni bir dövr başlanılıb. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər seçkisindəki Qələbədən sonra ölkənin ictimai-siyasi, sosial-mədəni həyatı üçün yeni hədəflər müəyyənləşdirilib. Zəfərimizin, həmçinin ərazi bütövlüyümüzün və suverenliyimizin müəllifi olan Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşən xalq qalib Liderinə səs verməklə bir daha təsdiqlədi ki, xalq-Prezident birliyi, həmrəyliyi sarsılmazdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində yeni dövr üzrə müəyyənləşdirilən hədəfləri mesaj verdi. ”Bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm” - deyən Prezident bildirib ki, iyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. Dövlət siyasətinin müasir modelini yaradan Azərbaycan Prezidenti İlham Əliyevin yüksək idarəçilik məharəti, milli maraqlara əsaslanan daxili və xarici siyasəti bütün sferalarda yüksək nailiyyətlərlə müşahidə olunur. ”2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi” - deyə Prezident bildirib. diqqətə çəkib.

Azərbaycanın uğurlu inkişafının təmin edilməsində və qarşıda duran bütün əsas vəzifələr uğurla icrasının təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır.

Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir. Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb.

### CƏNUBİ QAFQAZIN TƏHLÜKƏSİZLİK QARANTI

Müasir dövrdə Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkədir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Bakının mövqeyini nəzərə alır və həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, regionda xüsusi çəkiyə sahibdir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Bu gün dünya dövlətləri ilə qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək mərhələdədir. Mərkəzi və Şərqi Avropa ölkələri ilə müxtəlif sahələri əhatə edən ikitərəfli əməkdaşlıq Azərbaycanın xarici siyasətinin məntiqidir. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətinin məntiqi nəticəsidir. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Bakının mövqeyini nəzərə alır və həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, regionda xüsusi çəkiyə sahibdir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Bu gün dünya dövlətləri ilə qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək mərhələdədir. Mərkəzi və Şərqi Avropa ölkələri ilə müxtəlif sahələri əhatə edən ikitərəfli əməkdaşlıq Azərbaycanın xarici siyasətinin məntiqidir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prioritet sahələrin inkişafının təmin edilməsinə hesablanan islahatlar qlobal miqyasda meydana çıxan yeni çağırışları, cəmiyyətin sosial sifarişlərini əhatə edir.

Dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırmasında bir həqiqət var. Ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Dövlət başçısının əməli fəaliyyəti, iradəsidir ki, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, qlobal əhəmiyyətli iqtisadi zonalar yaradılıb. Cənub Qaz Dəhlizinin, TANAP layihəsinin istifadəyə verilməsi uğurlu hadisələr sırasındadır. Bölgədə, Avrasiya məkanında həyata keçirilən layihələr önəm daşıyır və ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verdi. Bununla da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməyə başladı.

### ”DƏMİR YUMRUĞ”UN YARATDIĞI YENİ REALLIQLAR

Bugünkü Azərbaycan reallıqları deməyə əsas verir ki, sabitlik, təhlükəsizlik və inkişaf 22 illik tariximizi xarakterizə edən əsas amillərdir. Əlbəttə ki, güclü dövlət və güclü Liderlik bizə Zəfərimizi yaşatdı.

Azərbaycan uzun illər bu münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün səylər göstərsə də, Ermənistanın ötən müddət ərzində işğalçılıq siyasətindən əl çəkməməsi, son illərdə isə bu ölkənin rəsmilərinin yeni ərazilər tutmaq iddialarını açıq şəkildə dilə gətirmələri, 2019-cu ildə baş nazir Nikol Paşinyanın ”Qarabağ Ermənistandır və nöqtə” ifadəsi kimi təxribat xarakterli bəyanatları və addımları danışıqlar prosesinə ciddi zərbə vurdu. Nəticə isə göz qabağındadır. Ermənistanın qeyri-konstruktiv, təxribatçı mövqeyi onun kapitulyasiyası ilə nəticələndi. Təbii ki, bu Zəfərin əsas qəhrəmanı Prezident İlham Əliyevdir.

Dövlətimizin başçısı Vətən müharibəsi dövründə bütün təzyiqlərə mətanətlə sinə gərərək Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə etdi. Nəticədə ölkəmiz BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı dörd qətnaməsini özü icra etdi. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə mövqeləri güclənib və bundan sonrakı mərhələdə daha da möhkəmlənəcək. 30 ilə yaxın işğalda olan torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad olundu. Xalq-iqtidar birliyi, ordu quruculuğu burada önəmli faktor olduğunu qeyd etməliyik. Zəfər qazanmış Azərbaycanı daha uğurlu gələcək gözləyir. Qarabağ və Şərqi Zəngəzur yeni inkişaf dövrünü yaşayır. ”Dəmir Yumruğu”n yaratdığı yeni reallıqlarla hər kəs hesablaşmalıdır. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzuru yaşıl enerji bölgələri elan edib və həmin ərazilərin sosial-iqtisadi inkişafı ilə bağlı nəzərdə tutulan layihələr icra olunmaqdadır. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın yaratdığı yeni reallıqlar regional sülh, sabitlik, təhlükəsizlik baxımından strateji əhəmiyyət kəsb edir. Qarabağ Zəfəri sayəsində regionda yaranmış yeni geosiyasi vəziyyət region dövlətlərlə yanaşı, Avrasiya məkanında sülh və inkişafa yol açır. Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan hadisə kimi əhəmiyyətə malikdir. Bu, türk dünyasını, Avropanı, eləcə də qonşu dövlətləri birləşdirəcək layihədir. Qətiyyətlə deyə bilərik ki, ötən 22 il ərizində Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən ölkəsi kimi yüksək imicə sahibdir. Ümummilli Liderin qurduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli bir dövrünü yaşayır.

***Zümrüd BAYRAMOVA***

***Şarm əl-Şeyxdə Qəzza zolağında müharibəyə son qoyulması ilə bağlı saziş imzalanıb. Sənədi Donald Tramp və üç vasitəçi ölkə - Türkiyə, Misir və Qətər imzalayıb. ABŞ prezidenti Ukraynaya ciddi yanaşacağına söz verib. Tramp əvvəlcə qısamüddətli səfər üçün İsrailə gəlib. Knessetdəki çıxışı zamanı Yaxın Şərqdə yeni eranın başlandığını elan edib. İndi Rusiya və Ukraynanı barışdırmaq və ideal olaraq İranın nüvə proqramını həll etmək vaxtıdır, deyib.***

# Regionda lider, dünyada böyük aktor

## Sülh sammitində dünyanın ən güclüləri sırasında Azərbaycan da var

Bu arada Misirin Şarm əl-Şeyx şəhərində dünyanın ən güclü liderləri Qəzza zolağı ilə bağlı genişmiqyaslı konfransa toplaşıblar. Tramp bir daha təntənəli şəkildə elan edib ki, III Dünya Müharibəsi Yaxın Şərqdə başlana bilərdi, amma buna imkan verilmədi, qarşısı alındı. Yeri gəlmişkən qeyd edək ki, Sülh konfransı İsrailsiz və Rusiyasız baş tutub. Benyamin Netanyahunu şəxsən Donald Tramp dəvət etsə də, baş nazir ölkəsindəki bayram tədbirlərini əsas gətirərək iştirak etməyib. Halbuki, Netanyahunun konfransda iştirakına Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan əngəl olub. Rəcəb Tayyib Ərdoğanın təyyarəni geri qaytarmağa və sammiti boykot etməyə hazırlaşdığı barədə məlumatlar var idi. İmzalanması nəzərdə tutulan müqavilənin qarantı Türkiyə olduğu üçün buna yol verməK olmazdı. Rusiyaya gəlincə, dəvət sadəcə olaraq göndərilməyib.




### İlham Əliyevi isə ABŞ və Misir prezidentləri dəvət edib

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Misirdə işgüzar səfərdə olub. Dövlətimizin başçısı oktyabrın 13-də Sammitin keçirildiyi Şarm əl-Şeyx şəhərindəki Beynəlxalq Konqres Mərkəzinə gəlib. Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi dövlətimizin başçısını qarşılayıb.







Konfransda Qəzza zolağında sülhlə bağlı sənədi dörd vasitəçi ölkə imzalayıb: ABŞ, Qətər, Misir və Türkiyə. Azərbaycan Prezidenti İlham Əliyev də daxil olmaqla ən azı 20 ölkə liderinin, o cümlədən Avropa və Yaxın Şərqin əsas dövlətlərinin iştirakı ilə baş verib. Bu, həm də Donald Trampın sədrlik etməsinin əleyhinə olmayan sülh şurası məsələsinə və getdikcə zəifləyən BMT-nin roluna aiddir. Qəzza zolağı ətrafındakı vəziyyətə qayıdaraq, demək mümkündür ki, bu sənəd sadəcə, kağız parçası deyil və razılaşmaların iflasa uğraması ehtimalı yoxdur. Buna baxmayaraq, baş verən hər şey əyani şəkildə göstərir ki, müxtəlif regionların, mədəniyyətlərin və dinlərin nümayəndələri problemlərin müstəsna olaraq sivil yolla həllinə, zorakılıq olmadan sülhün qurulmasına razıdırlar. Bütün bunların təməli İbrahim razılaşmalarının genişlənməsi olmalıdır.

Hər şeyin bundan sonra ideal olacağını düşünmək olmaz, ancaq arxada oturub heç nə etməmək vəziyyəti daha da pisləşdirə bilər. Eyni zamanda, bir daha sübut olunur ki, hətta sülhü də güc yolu ilə təmin etmək mümkündür. Bu formuldan istifadənin nəticə əldə olunmasında effektiv olduğunu düşünən Almaniya kansleri Fridrix Merz artıq Trampı Rusiya-Ukrayna münaqişəsinə də oxşar üsul tətbiq etməyə çağırıb. ABŞ prezidenti bununla yaxından məşğul olacağına söz verib.

### Tramp-Əliyev görüşü və...

Tədbir başlamazdan əvvəl Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dövlətimizin başçısını salamlayıb və prezidentlər birgə foto çəkdiriblər.

Sammitdə Prezident Donald Tramp Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşünə toxunaraq deyib: "Budur, mən bu yaxınlarda bu şəxs üçün müharibəni bitirdim. Azərbaycan, işimi bəyəndinizmi? Bəs Sizin həmkarınız haradadır? Budur, buradadır. Siz ikiniz artıq yola gedirsiniz, elə deyilmi? Onlar 32 il müharibə etdilər, biz isə bir saata bu məsələni həll etdik, elədirmi? İndi onlar yola gedirlər, bu yaxşıdır, düşünürəm ki, bu əladır.

İmzalanma mərasimindən sonra bəyanatla çıxış edərkən ABŞ Prezidenti Donald Tramp Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlərə toxunaraq bildirdi: "Burada Ermənistan və Azərbaycan var. Biz bu müharibəni bitirdik. Mənim onlarla görüşüm Oval ofisdə baş tutdu. Onlar 31 il vuruşdular, ağlasığmaz bir rəqəmdir. Oval ofisdə bir-birinə əks tərəfdə əyləşmişdilər. Bir saatdan sonra işimiz bitəndə hər ikisi bir-birini qucaqlayırdı. İndi də onlar dostdurlar və çox gözəl anlaşırlar. Ona görə də hər ikinizə təşəkkür etmək istəyirəm. Bu, həqiqətən inanılmazdır. Çox sağ olun".

### Dünyada artan nüfuz və nəticə

Prezident İlham Əliyevin Misirdə keçirilən sülh sammitinə dəvət olunması onun həm regional, həm də qlobal miqyasda artan siyasi nüfuzunun göstəricisidir. Bu cür beynəlxalq tədbirlər, xüsusilə də sülh və təhlükəsizlik kimi həssas mövzularda keçirilən sammitlər, adətən yalnız müstəqil və balanslı xarici siyasət yürüdən, həmçinin etibarlı tərəfdaş kimi tanınan dövlət və liderləri bir araya gətirir.

*Ardı Səh. 4*

Əvvəli Səh. 3

Azərbaycanın son illərdə Cənubi Qafqaz regionunda yaratdığı yeni reallıqlar, xüsusilə 44 günlük Vətən müharibəsindən sonra regionda sülh və əməkdaşlıq gündəliyinin təşəbbüskarı kimi çıxış etməsi, ölkənin beynəlxalq aləmdə çəkisini artırıb. Prezident İlham Əliyev bu proseslərin mərkəzində duran əsas fiqur kimi tanınır. Onun diplomatik çevikliyi, beynəlxalq platformalarda qaldırdığı qlobal çağırışlara dair konkret və balanslı mövqeyi, Azərbaycanı qlobal dialoqun fəal iştirakçısına çevirib.

Misirdəki sülh sammitinə dəvət həm də onu göstərir ki, Azərbaycan artıq yalnız enerji və təhlükəsizlik məsələlərində deyil, həm də geosiyasi sabitliyin qorunması və sülh təşəbbüslərinin irəli sürülməsi baxımından da



əhəmiyyətli aktor kimi qəbul olunur. Bu, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən çoxşaxəli və prinsipial xarici siyasətin nəticəsidir.

Eyni zamanda, belə bir dəvət Azərbaycanın İslam dünyasındakı nüfuzunu da əks etdirir. Misir kimi böyük bir ərəb və İslam ölkəsinin ev sahibliyi etdiyi tədbirdə iştirak, Azərbaycanın müsəlman ölkələri ilə həmrəyliyinin və inteqrasiya səylərinin bir göstəricisidir.

Nəticə etibarilə, Prezident İlham Əliyevin bu kimi yüksək səviyyəli beynəlxalq tədbirlərə dəvət olunması, onun şəxsi liderlik keyfiyyətlərinin və Azərbaycanın beynəlxalq nüfuzunun artdığının bariz nümunəsidir. Bu, ölkənin gələcəkdə də beynəlxalq proseslərdə fəal rol oynayacağına dair gözləntiləri artırır.

# Regionda lider, dünyada böyük aktor

## Sülh sammitində dünyanın ən güclüləri sırasında Azərbaycan da var










### Bir daha sammit barədə

Donald Tramp Misirdə keçirilən sammitdə "Yenidən qurmaq asan hissə ola bilər. Biz necə qurmağı dünyada hamıdan yaxşı bilirik" deyib. ABŞ prezidenti sammitdə iştirak edən digər dünya liderlərini də "köhnə ədavətləri və acı nifrətləri bir kənara qoymağa" çağırıb. O əlavə edib ki, "gələcəyimizi keçmiş nəsillərin müharibələri müəyyən etməyəcək".

Qeyd edək ki, İsrail və HƏMAS hərəkatı arasında atəşkəs oktyabrın 10-da günorta saatlarında qüvvəyə minib. Döyüşlər başa çatdıqdan sonra qrup sağ qalan 20 məhbusu İsrailə, İsrail isə öz növbəsində 1900 fələstinli məhbusu azad edib. Oktyabrın 13-də ABŞ, Misir, Qətər və Türkiyə sülh sazişi imzaladılar. Sammitdə İsrail və HƏMAS-ın nümayəndələri iştirak etməyiblər.

### Çağırışlar

ABŞ, Misir, Qətər və Türkiyə ABŞ prezidenti Donald Trampın Qəzza zolağında münaqişənin həlli planının növbəti mərhələlərini həyata keçirmək üçün məsləhətləşmələrə çağırıb. Bu, Şarm əş-Şeyx sammitindən sonra Misir prezidenti Əbdülfəttah əs-Sisinin dəftərxanasının bəyanatından sonra deyilir. Məsləhətləşmələr Qəzza zolağında idarəetmə və təhlükəsizlik məsələlərini, eləcə də yenidənqurma məsələlərini əhatə etməlidir, bəyanatda vurğulanır. Zirvə görüşündə sazişin müddəalarının həyata keçirilməsi üçün bütün zəruri vasitələrin təmin edilməsi üçün beynəlxalq ictimaiyyətdə tərəflər arasında əməkdaşlığın vacibliyi vurğulanıb.

Bura girovların və əsirlərin mübadiləsinin başa çatdırılması, İsrail qoşunlarının çıxarılması və Qəzza zolağına humanitar yardımın çatdırılması daxildir. Əbdülfəttah əs-Sisi bəyan edib ki, yaxın günlərdə Qəzza zolağının yenidən qurulması ilə bağlı müzakirələr başlayacaq.

Misir prezidenti Əbdülfəttah əs-Sisi Qəzza zolağında İsrail və Fələstinin HƏMAS hərəkatı arasında münaqişənin Yaxın Şərqdə sonuncu olacağına ümid etdiyini bildirib. O, Qəzza sazişinin imzalanmasını regionda "yeni sülh dövrünün qapılarını açan" tarixi dönüş nöqtəsi adlandırıb. Əbdülfəttah əs-Sisi Şarm əş-Şeyxdə keçirilən Qəzza sammitindən sonra deyib ki, Misir, eləcə də ərəb və İslam ölkələri ədalət və bərabərliyə əsaslanmalı olan sülh üçün strateji seçimlərini təsdiqləyirlər. O əlavə edib ki, yaxın günlərdə Qəzza zolağının yenidən qurulması ilə bağlı müzakirələr başlayacaq.

Misir prezidentinin sözlərinə görə, Qəzzada imzalanan atəşkəs sazişi iki dövlətin - İsrail və Fələstin dövlətlərinin mövcudluğuna şərait yaradır. "İki dövlətli həll Fələstin və İsrail xalqlarının istəklərini həyata keçirməyin yeganə yoludur", o qeyd edib.




**V.VƏLİYEV**

# 15 oktyabr 2003-cü il: 5 seçim, 22 il və yalnız QÜRUR!

***Xalqları dünyaya tanıdan təkcə onların zəngin təbii sərvətləri və maddi mədəniyyət inciləri deyil, həm də dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətləridir. Məhz belə fenomen şəxsiyyətlərin müəyyənləşdirdiyi yol hər bir millətin strateji inkişaf konsepsiyasına çevrilməklə onun dünya arenasında özünə layiqli yer tutmasını təmin edir. Belə nadir şəxsiyyətlərdən biri, müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra çoxşaxəli islahatların varisliyini uğurla təmin edə biləcək peşəkar lider də yetişdirib. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyən Heydər Əliyevin xalqımıza özünün layiqli davamçısı kimi təqdim etdiyi cənab İlham Əliyevin ötən 5 seçim, ümumilikdə isə 22 illik prezidentlik fəaliyyətinin qısa təhlili bu fikrin qəti qənaət olduğunu sübut edir.***




22 ilin başlanğıcı 2003-cü il idi. Xalqımızın taleyində mühüm əhəmiyyət kəsb edən tarix: 15 oktyabr 2003-cü il. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalq həmin tarixdə keçirilən seçkilərdə onun layiqli varisi İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə özünə yeni Prezident seçdi. Ötən 22 ilin hər anı xalqa ilk müraciətində "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" - deyən cənab Prezidentin qətiyyətlə söylədiyi bu fikrin təsdiqidir.

"Mən ona özüm qədər inanıram..."

Ümummilli Liderin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və müasir dövrə uyğunlaşdıran Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı Lider olduğu bir daha təsdiqini tapır. Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi aləmində özünəməxsus yeri ilə seçilir. Bütün dünya dövlətləri onunla hesablaşır, ona hörmət və ehtiramla yanaşır. Bu gün dünyanın hər yerində söhbət Azərbaycandan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən gedir.

2003-cü ilin 15 oktyabr Prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciət təkcə Ulu Öndərin deyil, bütövlükdə, Azərbaycan xalqının cənab İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü kimi ortaya çıxmışdır. Ulu öndər bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Zaman və tarix sübut edib ki, Ulu Öndər siyasətdə heç zaman yanılmayıb. Ötən 22 ildə bunun bir daha şahidi olduq. Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə şahid olduq. Sıravi vətəndaşdan tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan böyüyə hər kəsə qayğıda, ehtiramda gördük. Ölkə rəhbərinin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına qayğısında gördük. Ötən 22 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsində, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün hərtərəfli tədbirlərin həyata keçirilməsində gördük. Nə üçün əsasən, ordu quruculuğu məsələsinin üzərinə gəldim? Çünki ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayırdılar. Onları ən çox düşündürən yurd yerlərinə qovuşmaq idi. Nə qədər inkişaf etmiş bir ölkədə yaşasalar da, hərtərəfli qayğı ilə əhatə olunsalar da, qaçqınlıq və köçkünlük acısı, yurd həsrəti vardı ürəklərdə. Onlar öz torpaqlarını istəyirdi. Qarabağ Azərbaycanın yarası idi. Bu yara sağalardısa, Azərbaycan tam ola bilərdi.

## Yeri gələndə tarixçi, coğrafiyaçı, siyasətçi, yeri gələndə sıravi azərbaycanlı LİDER

Zaman göstərdi ki, məhz Heydər Əliyev və Zərifə xanım Əliyeva kimi dahi insanların, gözəl ata-ananın, ləyaqətli vətəndaşların, ictimai xadimlərin, vətənpərvər insanların ailəsində İlham Əliyev kimi övlad böyüyə bilərdi. Bu övlad ailənin bütün üstün cəhətlərindən zaman-zaman aldığı dəyərlərlə yumruğu boyda ürəyinə Azərbaycan böyüklükdə Vətən sevgisini elə sığdıracaqdı ki, bu sevgi bir gün xalqın, millətin xilasına çevriləcəkdi. 30 il işğal olunan torpaqlara görə başını dik tuta bilməyən xalqın başını zirvələrə qaldıracaqdı. Xalqa qürurunu, namusunu, iffətini qaytaracaqdı. Azərbaycanın işğal olunan torpaqlarının azad olunması ilə tarixin 270 illik zaman kəsiyinin axarını dəyişəcəkdi.

Deyirlər, yaxşı ataların yaxşı oğulları olur. Ulu Öndər Heydər Əliyevin Azərbaycana məhəbbətinin, sevgisinin, torpaqlarımızın işğalına ürək ağrısının, onların bir gün geri qaytarılması üçün mübarizələrinin davamını cənab İlham Əliyevdə gördük. Gördük ki, O, tək ailəsinə məxsus övlad yox, ümumilikdə Azərbaycan xalqının övladı oldu. Gördük ki, dövlətimizin başçısı kimi fəaliyyət dövrünün hər anı ölkəmizin inkişafına, dünyada tanınmasına, bir də ata nəsihətlərinin həyata keçirilməsinə sərf edilib. Gördük ki, Qarabağ məsələsi bir an da unudulmayıb. Liderimizin bütün bayramlarda xalqa müraciətlərdə Qarabağın bir gün azad olunacağına əminliyini dinlədik. Bu torpaqların düşmən tapdağı altında inləməsini ürək yanğısı ilə yaşadığını hiss etdik. Onların bir gün yenə də bizim olacağına xalqı əmin etdiyini gördük...

Prezidentimiz ən mötəbər tədbirlərdə Qarabağla bağlı dünyaya üz tutdu. Qarabağ həqiqətlərini onlara çatdırdı. Bütün dünyanı haqq səsimizə səs verməyə çağırdı. Bu qədim torpaqların Azərbaycana məxsusluğunu tarixi faktlarla sübut etdi. Bizim Prezidentimiz yeri gələndə tarixçi oldu, yeri gələndə coğrafiyaçı, yeri gələndə siyasətçi, yeri gələndə sıravi azərbaycanlı. Mükəmməl olaraq rus və ingilis dillərdə mötəbər kürsülərdəki səlis nitqləri ilə bir tərəfdən azərbaycanlı olduğu, bizim Lider olduğu üçün, digər tərəfdən isə xalqın istəklərini aydın çatdırdığı üçün qürur duyduq.

Bizim Prezidentimiz Azərbaycanın sülhün tərəfində dayandığını bütün dünyaya bəyan etdi. Dünyanı sülhə çağırdı. Ermənistanın dinc yolla torpaqlarımızı qaytarmasını tələb etdi. Liderimiz ikinci yolu da birinci yolla paralel inkişaf etdirirdi. Bu, hərb yolu idi. Dəfələrlə çıxışlarında, beynəlxalq tədbirlərdə açıq şəkildə bildirirdi ki, torpaqlarımız sülh yolu ilə qaytarılmazsa, hərb yolunu seçməli olacağıq. Belə də oldu. İkinci yolun harada və nə vaxt başlanacağını böyük uzaqgörənliklə hazırlayan cənab İlham Əliyev dünyanın qulaqlarının sülh çağırışına kar olduğunu bir daha yəqin edəndən sonra, ikinci yola çıxmağın zamanını bəyan etdi. Bu yol Ermənistanın yeni torpaqlar iddiasına dərhal verilən cavabla başlandı. 27 sentyabr 2020-ci il Qarabağın azadlığına gedən yol oldu. Cəmi 44 gün davam edən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının böyük Zəfəri ilə bitdi və tarixin 270 illik axını dəyişib göstərdi ki, analar dünyaya 200-300 ildənbir elə oğullar gətirir ki, o oğullar zamana hökm oxuya bilir...

## 90-ların səhvini 2020-də düzəldən LİDER

Qarabağ 1990-cı ildə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat qruplaşmasının tarixin də, bu xalqın da bağışlamayacağı səhvi idi. Vəzifədə qalmaq, kürsülərini qorumaq üçün rus imperiyasının son qalıqlarına satılan, torpaqlarımızı Ermənistana hədiyyə etməklə yerlərini möhkəmlətmək istəyən bir qruplaşmanın böyük səhvi idi. Bu, səhvdən də çox ağıla gəlməyən qəbahət idi. Satqınlıq, Vətənə xəyanət, millətə qarşı günah idi. Sən vəzifə üçün bir xalqın dədə-baba yurdunu, əzəli torpaqlarını necə sata bilərsən? Necə razılaşmaq olardı ki, erməni gecənin birində sənin soydaşının qapısında peyda olsun, onu silahın burnunda evindən çıxarıb qışın şaxtasında, ayazında yurdundan qovsun, insanlar yurdsuz, ev-eşiksiz qalsın, illərlə dişi-dırnağı ilə qurub-yaratdığı evini qoyub, dədə-baba ocağını tərk etsin. Nədir ki, sən vəzifədə qalasan, ağılsız olduğun halda hakimiyyəti zəbt edəsən.

Bəli, Qarabağ 90-cı illərin hakimiyyət vurğunlarının qurbanı olmuşdu. Minlərlə insanın ah-naləsini hələ də çiyinlərində daşıyan qruplaşmanın satqınlığının qurbanı olmuşdu. Bunu xalq sonradan bildi, AXC-Müsavat birliyinə etimadını itirdi. Onların hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Çünki gözlərinin qarşısında məcburi köçkünlükdə əzab çəkən minlərlə insan vardı. Azərbaycanın işğal olunan baş tacı Qarabağ vardı. Bir də bu işğala görə başını dik tuta bilməyən xalq vardı. Nə vaxt, harada Qarabağdan söz düşürdüsə, başımızı aşağı dikirdik. Utanırdıq torpaqlarımızın işğal altında olmasından. Bütün bunları isə xalqa onlar bəxş etmişdi.

Cənab İlham Əliyev 90-ların səhvinin düzəldilməsi üçün uzun illər mübarizə apardı. 90-cı illərdə iqtisadi tənəzzülə uğrayan ölkənin bu vəziyyətini 1993-cü ildən etibarən aradan qaldıran, Azərbaycanda yeni Azərbaycan yaradan, bu qruplaşmanı xalqın yaxasından qoparıb atan Ümummilli Liderin gələcəyə hesablanmış inkişaf konsepsiyasını 2003-cü ildən uğurla davam etdirən dövlətimizin başçısı böyük zəhmət nəticəsində 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu.

*Ardı Səh. 6*

# 15 oktyabr 2003-cü il: 5 seçim, 22 il və yalnız QÜRUR!

Əvvəli Səh. 5

44 günlük Vətən müharibəsində Zəfər qazandıq. 2023-cü ilin 20 sentyabrında Xankəndidə birgünlük anti-terror əməliyyatı ilə ərazi bütövlüyümə nail olub suverenliyimizi bərpa etdik.

Müharibə böyük itkilərlə başa çatdı. Bu itkilərin də səbəbkarları onlardır-AXCP-Müsavat. Onların səhvləri düzəldilsə də, torpaqlarımız azad edilsə də, Böyük Qayıdış başlansa da, AXCP-Müsavat birləşməsinin üzvlərinin bu xalqa vurduqları maddi və mənəvi zərər heç vaxt unudulmayacaq.

## Azərbaycan gəncliyinə nümunə LİDER

Heydər Əliyev və Zərifə xanım Əliyevanın böyüdüb tərbiyə etdiyi övladı öncə ata-anadan, ailədəki dəyərlərdən, sonra isə xalqın bu ailəyə etimadından, böyük Heydər Əliyevə nüfuzundan, onun mənəvi və siyasi varisinin Heydər Əliyev yolunu uğurla davam etdirəcəyinə böyük inamından aldığı güclə böyük Liderə çevrilə bildi. Xalq öz Liderinin ətrafında sıx birləşdi. Müharibədə Prezidentimizin düşmənə göstərdiyi dəmir yumruğun rəmzi mənası var idi. Bu, bütün xalqın gücünü özündə toplayan bir yumruq idi. Düşmənin üzərinə endirilən birgə həmlə idi.

Xalqın birlik, həmrəylik nümayiş etdirməsi öz Liderinə inamından, arxalanmasından irəli gəlirdi. Gənclərimizin cəbhəyə axın etməsi, səfərbərlik məntəqələri qarşısında gecəligündüzlü Ali Baş Komandanın əmrini gözləməsi ötən 35 ilin əvvəlindəki hakimiyyət nümayəndələri ilə müqayisə belə edilə bilməyəcək bir Liderə sahib olmağımızın nəticələri idi.

Minlərlə gəncin böyük sərkərdənin bir əmri ilə döyüşə yollanması gənc nəslin dövlətinin başçısına etimadının göstəricisi idi. Hansı ki, Ermənistan tərəfdə vəziyyət heç də belə deyildi. Bu, baş nazir Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan tərəfindən də etiraf olunmuşdu. Onun söylədiyinə görə 2020-ci ildə 44 günlük müharibədə Ermənistan ordusunun təxminən 25%-i - 11 min nəfəri fərarilik edib, döyüşlərdən qaçıb. O, Paşinyanın və özünün könüllü cəbhəyə yollanmaq üçün erməni xalqına müraciətlərinə, çağırışlarına da cəmiyyətdən tutarlı reaksiya gəlmədiyini etiraf edirdi. Başqa sözlə, erməni gəncləri Paşinyanın çağırışlarını cavabsız buraxıb - zorla ordu sıralarına cəlb edilənlər isə çıxış yolunu qaçmaqda gördü.

Bizim gənclərin vətənpərvərliyi isə cənab İlham Əliyevin Azərbaycanda yarada bildiyi ictimai mühitin bəhrələri idi. Vətəndaşına yanaşmasının, hər yaş qrupunda olan insanlara eyni qayğı göstərməsinin, gənclər üçün yaradılan hərtərəfli şəraitin, ən əsası isə onlara vətənpərvərliyin aşılanmasının nəticələri idi.

Bizim Prezidentimizin özü Azərbaycan gəncliyinə bir nümunə idi. Gənclik Liderimizin beynəlxalq kürsülərdə səslləndirdiyi fikirləri sosial şəbəkələrdə paylaşırdı. Liderimizin müharibə dövründə xarici mətbuat nümayəndələrinə verdiyi onlarla müsahibədəki qətiyyətli cavablar hər bir gəncin sosial şəbəkə manşetinə çevrilmişdi. Bu gün də elədir. Bu gün Azərbaycanda Prezientimizin fəaliyyətini, dəyərli fikirlərini dərhal gənclərimizin sosial şəbəkələrdəki paylaşımlarında görmək olur. Bu, inamdır, arxalanmaq, etibar etməkdir. Bir də xalqın Liderinə sevgisidir. Bu sevgi isə düz sərhədlərimizə qədər uzanır. Ölkəmizin sərhədlərinin, ərazi bütövlüyünün qorunması üçün hər kəsin sinəsini sipər etməsini şərtləndirir.

## Xalqını xoşbəxt gələcəyə aparan LİDER

Bu gün Qarabağda yenidənqurma və bərpa işləri davam edir. Müharibədən dərhal sonra başlanan işlərin sürətlə aparılası soydaşlarımızın evlərinə daha tez qayıtmasına xidmət edir. Qarabağın və Şərqi Zəngəzurun inkişaf etdirilməsi, hər bir işğaldan azad edilmiş rayonumuzla bağlı Liderimizin fikirləri bu yurdların yaxın gələcəkdə böyük inkişafından xəbər verir.

Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər isə nəinki xalqımızın, region dövlətlərinin də gələcək inkişafına hesablanmış addımdır. Ermənilər üçtərəfli 10 noyabr Bəyannaməsində üzərinə düşən öhdəlikləri icra etməsələr də, bizim Liderimiz bu məsələni dünya səviyyəsində-ABŞ Prezidenti ilə həll etdi. Bununla da Azərbaycanın gücünü, nə qədər zəngin bir coğrafiyaya malik olmasını, bu coğrafiyanın dünyanın bir tərəfindən o biri tərəfinə yol açmasını bir daha dünyaya göstərdi. Artıq dünyanın böyük ölkələri də bizi dinləyir, çünki haqqın tərəfimizdə olduğunu anlayır.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi, TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib. Azərbaycan bu gün dünyanın məhdud saylı kosmik ölkələri sırasında yer alır. "Azerspace-1", "Azersky" və "Azerspace-2" peykləri orbitdə uğurla fəaliyyət göstərir.

Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi istiqamətində bir çox layihələrin, inqilabi islahatların müəllifidir. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini - "ASAN xidmət" mərkəzlərini buna misal göstərmək olar.

Son 19 il ərzində Azərbaycan dünyada həm də mühüm beynəlxalq tədbirlərin, yarışların keçirildiyi ölkə kimi tanınıb. Bakı "Eurovision" mahnı müsabiqəsinə, ilk Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula 1" yarışlarına, futbol üzrə Avropa çempionatının final mərhələsinin bir neçə oyununa ev sahibliyi edib.

***

Azərbaycan xalqı inandığı, etibar etdiyi, arxalandığı və sevdiyi Lideri ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolçuluqda hər an Ümummilli Liderimiz Heydər Əliyevin və xalqımıza müzəffər sərkərdə bəxş edən Zərifə xanım Əliyevanın parlaq ruhları bizimlədir. Çünki ağsaqqal, ağbircək olan yerdə Allah var. Ata vəsiyyətini reallaşdıran və bunu Şuşanın alındığı gün Bakıda Şəhidlər Xiyabanında böyük qürurla söyləyən Prezidentimiz xalqımızın çoxəsrlik ailə dəyərlərini qoruması ilə də nümunə oldu.

Nə xoşdur ki, Qarabağımızı-torpaqlarımızı, şərəf və namusumuzu xilas edən LİDERİMİZ var. Nə xoşdur ki, övladlarımız hər addımı Liderləri və dostları cənab İlham Əliyevdən öyrənirlər. Öyrənirlər ki, onlar da əsl övlad, əsl vətəndaş ola bilsinlər.

***Mətanət Məmmədova***

## Repetitorluq fəaliyyətinin təhsildə adi hal almasının səbəbi NƏDİR?

*EKSPERT AÇIQLADI*



"Son illər Azərbaycanda repetitorluq fəaliyyəti xeyli genişlənib və bu, artıq yuxarı siniflərlə məhdudlaşmır". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Rasim Həsənzadə bildirib. Onun sözlərinə



görə təəssüf ki, bu tendensiya ibtidai, hətta 1-ci sinif səviyyəsinə qədər enib: "Yəni, oxuma-yazmağı yeni öyrənən uşaqlar belə repititor yanına gedirlər. Düşünürəm ki, bu halın yaranması təsadüfi deyil və bir neçə əsas səbəbi var. Əvvəla, təhsil mühitində artan rəqabət valideynləri erkən yaşdan "hazırlıq prosesinə başlamağa" vadar edir. Valideynlər düşünür ki, övladı nə qədər tez oxuma-yazmağa, hesablamağa başlasa, gələcəkdə bir o qədər uğurlu olacaq. Xüsusilə də tanınmış məktəblərə qəbul imtahanlarının və müsabiqələrin artması bu psixologiyanı daha da möhkəmləndirib.

İkinci mühüm səbəb məktəblərdə tədrisin keyfiyyətinə etimadsızlıqdır, qısaca məktəbin nüfuzu zəifləyib. Bəzi valideynlər hesab edir ki, məktəblərdə uşaqlara verilən biliklər kifayət qədər praktiki və sistemli deyil. Nəticədə onlar düşünürlər ki, övladları məktəbdə deyil, repititor yanında "keyfiyyətli təhsil" əldə edəcək. Bu, təhsil sisteminə inamsızlığın və valideyn gözləntilərinin uyğun gəlməməsinin bir göstəricisidir. Bununla yanaşı, sosial müqayisə və təzyiq də bu prosesə gətirib çıxarır. Cəmiyyətdə "filankəsin uşağı artıq oxumağı bilir", "bizim qonşunun uşağı hazırlığa gedir" , "xalxın balası gör necə oxuyur!" kimi müqayisələr çox yayılıb. Bu da valideynlərdə narahatlıq yaradır və nəticədə onlar övladlarını digərləri ilə eyni səviyyədə saxlamaq üçün repititor dərslərinə yönləndirirlər.

Bir başqa amil isə valideynlərin gözləntilərinin dəyişməsi ilə bağlıdır. Müasir dövrdə bir çox ailə repititorluğa yalnız öyrənmə prosesinə əlavə yardım kimi yox, həm də sosial status göstəricisi kimi baxır. Yəni "uşağım hazırlığa gedir" demək, bəzən bir növ uğur və qayğıkeş valideyn obrazı kimi qəbul olunur. Bu vəziyyətin arxasında emosional və psixoloji səbəblər də dayanır. Valideynlər övladlarının gələcəyini təmin etmək istəyərkən, bəzən onların yaş xüsusiyyətlərini, istirahət və oyun ehtiyaclarını nəzərə almırlar. Halbuki, 6-7 yaşlı uşaqlar üçün oyun və sosial qarşılıqlı münasibət təhsilin bir hissəsidir. Erkən yaşda repetitor yanına getmək, uşaqlarda öyrənməyə marağın azalmasına və təhsilin stresə çevrilməsinə gətirib çıxara bilər.

Nəticə etibarilə, repetitorluğun bu qədər erkən yaşlarda yayılmasının kökündə həm təhsil sistemində struktur problemlər, həm də valideynlərin psixoloji və sosial təzyiq altında qərar verməsi dayanır. Bu halın qarşısını almaq üçün məktəblərdə ibtidai təhsildən başlayaraq keyfiyyətin artırılması, valideynlərlə maarifləndirici işlərin aparılması və uşaqların təbii inkişaf tempinə hörmətlə yanaşılması vacibdir".

***İlkin Məmmədkərimov***

# "Füzulinin azad olunması Ermənistan ordusunun "yenilməzlik" mifini darmadağın etdi"

Vaxt var idi ki, xalqımız 30 ilə yaxın müddətdə şəhərlərimizin və kəndlərimizin Ermənistan tərəfindən işğalı günlərini böyük acı ilə qeyd edirdi. Ancaq artıq beş ildir ki, torpaqlarımızın işğalçıların tapdağı altından azad edilməsi günlərini böyük qürur və sevinc hissi ilə qeyd edirik. Onlardan biri də Füzuli şəhəridir. 2020-ci ilin oktyabrın 17-də Füzuli şəhərinin erməni işğalçılarından azad edilməsi Qarabağ probleminin həllində və ölkəmizin ərazi bütövlüyünün bərpasında mühüm bir dönüş nöqtəsi oldu. Bu sözləri Milli Məclisin deputatı Səbinə Salmanova deyib.

Deputat xatırladıb ki, Füzuli uğrunda aparılmış döyüşlər Vətən müharibəsi zamanı ən ağır döyüşlərdən olmuşdur: "Heç kəsə sirr deyil ki, 30 il ərzində Ermənistan silahlı qüvvələri təmas xəttində möhkəm istehkam qurmuşdu. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini iş-




ğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq. Lakin elə olmadı. Azərbaycan Ordusunun əsgər və zabitləri, igid Vətən oğulları Füzulini qısa müddətdə sahibinə qaytarmağı bacardı. Bu isə Azərbaycan Silahlı Qüvvələrinin peşəkar hərbi əməliyyatla hədəfə irəlilədiyini, sözün əsl mənasında, XXI əsrin müharibəsini apardığını təsdiqləyir. Füzulinin azad olunması Azərbaycan Ordusunun, cəmiyyətimizin özünə inamını daha da artırdı. Bu hadisə Ermənistan hərbi-siyasi rəhbərliyinin isterika vəziyyətinə düşməsinə səbəb olmuş, işğalçı ölkənin təcavüzkar silahlı qüvvələrinin "yenilməzlik" mifini darmadağın etdi. Füzulinin azad edilməsi ilə həm də Azərbaycan Ordusunun Şuşaya və digər işğal altında olan torpaqlara doğru böyük zəfər yürüşünün yeni mərhələsi başlandı".

Parlamentari qeyd edib ki, dövlət başçısı İlham Əliyev tərəfindən Füzuli uğrunda döyüşlərdə iştirak edənlərin qəhrəmanlığı da yüksək qiymətləndirilib: "Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq sərəncamları ilə 25325 hərbçimiz "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur. Bundan başqa, dövlətimizin başçısının 2023-cü ilin iyulun 31-də imzaladığı sərəncamla da hər il oktyabrın 17-də Füzuli Şəhəri Günü ölkəmizdə təntənəli şəkildə qeyd edilir".

***Günel Fərzəliyeva***

# "Zəngəzur dəhlizi Cənubi Qafqazda yeni iqtisadi-siyasi reallığın əsas dayağıdır"

*Politoloq şərh etdi*

"Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün strateji və geosiyasi baxımdan mühüm əhəmiyyət kəsb edən layihədir. Bu dəhliz Cənubi Qafqazda kommunikasiya xətlərinin bərpası, iqtisadi əlaqələrin genişlənməsi və uzunmüddətli sülhün möhkəmlənməsi baxımından yeni imkanlar yaradır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib.










Onun sözlərinə görə, Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirməklə ölkəmizin nəqliyyat və iqtisadi suverenliyini tam təmin edir. Bu, həmçinin Azərbaycan üçün Türkiyə ilə birbaşa quru əlaqəsinin bərpa olunması deməkdir ki, bu da Bakı-Ankara strateji tərəfdaşlığını yeni səviyyəyə qaldırır: "Dəhliz Cənubi Qafqazı Orta Asiya və Avropa arasında mühüm tranzit körpüsünə çevirir. Beləliklə, Zəngəzur dəhlizi təkcə Azərbaycan və Türkiyə üçün deyil, həm də Mərkəzi Asiya ölkələri, eləcə də Avropa üçün iqtisadi baxımdan alternativ və təhlükəsiz nəqliyyat marşrutu rolunu oynayır. Bu layihə eyni zamanda regionda yeni geosiyasi balansın formalaşmasına səbəb olur. Ermənistan üçün dəhlizin açılması iqtisadi izoliyasiyadan çıxış imkanı yaradır. Bununla yanaşı, Zəngəzur dəhlizi Rusiya, İran, Çin kimi güclərin də maraq dairəsindədir, çünki bu marşrut "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri ilə uzlaşaraq beynəlxalq logistika sistemində strateji mövqe formalaşdırır. Zəngəzur dəhlizi sadəcə bir nəqliyyat layihəsi deyil - bu, Cənubi Qafqazda yeni iqtisadi-siyasi reallığın, sabitliyin və əməkdaşlığın əsas dayaqlarından biridir. Azərbaycanın təşəbbüsü ilə reallaşan bu layihə regionun gələcək inkişafına və sülh gündəliyinin möhkəmlənməsinə xidmət edir".

***Ziya Hikmətoğlu***

# Münasibətdə sədaqət, yoxsa diqqət daha önəmlidir?

Sorğu

Münasibətlərdə ən çox müzakirə olunan məsələlərdən biri də sədaqət və diqqət arasındakı tarazlıqdır. Bəziləri hesab edir ki, sevginin əsas dayağı sədaqətdir - yəni qarşı tərəfə sadiq qalmaq, inamı qorumaq və dürüstlük göstərməkdir. Digərləri isə düşünür ki, sədaqət təkbaşına kifayət deyil; münasibəti yaşadan və canlı saxlayan diqqət, qayğı və emosional yaxınlıqdır. Müasir dövrdə sosial şəbəkələr, uzaq məsafələr və dəyişən dəyərlər bu anlayışlara fərqli baxış formalaşdırıb. Bəziləri diqqətin yoxluğunu xəyanət qədər ağır sayır, bəziləri isə sədaqəti itirən münasibətdə diqqətin mənasız olduğunu düşünür. Bəs insanlar bu iki anlayış arasında hansısa birini seçməli olsalar, hansını daha önəmli hesab edərdilər? SİA bu mövzu ilə bağlı şəhər sakinləri arasında sorğu aparıb.



**Şəhər sakini Ramizə Talıbova:** "Hesab edirəmki ailədə qarşılıqlı əməkdaşlıq, hörmət və diqqət ön planda olmalıdır. Belə olan halda ailə daha uzun ömürlü olar. Çünki ailədə uşaq böyüyür. Ailənin bünövrəsi üçün cütlüklər bir-birini başa düşməlidir. Kişi və qadın planlarını birlikdə qurmalıdırlar. Boşanmaların kökündə duran səbəb madiyyat və tələbdir. Kişilərin xəyanəti günümüzdə adi hal alıb. Hesab edirəm ki, bu faciədir".

**Şəhər sakini Toğrul Qədimli:** "Məncə cütlüklərdə həm sədaqət, həm də diqqət çox önəmlidir. Yəni kişi və qadın birinci növbədə bir-birini başa düşməlidirlər. Qərb ölkələrinin adətləri bizim milli mentalitetə mənfi təsir göstərir. Boşanmaların səbəbi isə ailə qurduqdan sonra kişilərin iş tapa bilməməsidir. Yəni işsiz bəy öz ailəsinə arxayın olur ailə qurur. Başqa bir səbəb isə xəyanətdir. Təkcə ötən il abortların sayı 73 minə çatıb. Bu isə hər gün 213 abort sayı deməkdir. Uzunömürlü ailənin sirri cütlüklərin bir-birinə güvənməsi, sadiqlik və problemlərin birlikdə həllinə çalışmasından keçir. Belə olan halda cütlüklər arasında xəyanət olmaz, abortların sayı azalar. Belə olan halda isə boşanma problemi ortadan qalxmış olar".

**Şəhər sakini Nicat Bayramov:** "Təbiiki ailədə hər ikisi önəmlidir. Sadiqlik və diqqət biri olmazsa ailədə problemlər başlayar. Boşanmaların səbəbi isə qadınlara qarşı olan şiddətdir. Ümumiyyətlə hər kəs ailə quranda düzgün insan seçməlidir".

**Şəhər sakini Məhəmməd Məmmədov:** "Fikrimcə, sədaqət önəmlidir. Boşanmaların ən böyük səbəbi xəyanətdir. Uzunömürlü ailənin sirri qarşılıqlı güvəndən keçir. Birdə qadınlar ailədə şiddətə məruz qalırlar. Bunun da səbəbi mental dəyərlərdir. Cütlüklər bir-birinə qarşı məsuliyyətli olmalıdır. Münasibətdə məsuliyyət olanda sevgidə yaranır. Sevən kişi heç vaxt qadınına qarşı zorakılıq etməz".

**Şəhər sakini Cavad Fikrətzadə:** "Təbiiki münasibətdə hər ikisi önəmlidir. Kişi tərəfindən qadına daim diqqət göstərilməlidir. Cütlüklər bir-biri ilə az vaxt keçirdikdə diqqət azalır. Kişi işi ilə çox məşğul olur. Gecə evə gəldikdə isə yorğun olur. Ümumiyyətlə kişi və qadın bir-biri ilə söhbət bələ etmir. Ən böyük problem isə utanmaqdır. Valideynlər öz övladlarının yanında əl-ələ belə tutmur. Məncə cütlüklərin bir-birlərinə öz sevgilərini göstərmələri münasibətləri çox gücləndirir".

**Şəhər sakini Gülnar Əhmədova:** "Münasibətdə həm sədaqət, həm də diqqət çox önəmlidir. İndiki dövrdə boşanmış qadınlara pis baxırlar. İnsanların düşüncəsi dəyişilməlidir. Boşanmış qadına təəssüfki cəmiyyətdə əxlaqsız gözü ilə baxırlar. Halbuki boşanmış qadın sadəcə ailə həyatı uğursuz olan qadındır. Boşanmaların əsas səbəbi qısqanclıqdır. Sevgi və sədaqət olan yerdə maddiyyat ikinci plana keçir. Mən sevib ailə qurmamışam. Ailələrimiz bizim ailə qurmağımıza səbəb oldu. Mən boşanmışam və boşanmağımada peşman deyiləm. Özüm vəkil köməkçisi olaraq işləmişəm. Yəni məhkəmə proseslərini görmüşəm. Boşanmaların əsas səbəbkarı kişilərdir".

**Şəhər sakini Firəngiz Məmmədova:** Şəhər sakini Firəngiz Məmmədova: "Məncə kişilər qadınlara qarşı diqqətli deyil. Qadınlarda təbii olaraq diqqət tələb edir. Qadınlar kişilərin laqeydliyinə dözmür. Boşanmaların səbəbi kişilərin xəyanətidir. Kişilər tərəfindən xəyanət pik həddədir. Qadınlar diqqət görmür, xəyanətə uğrayır, zorakılığa məruz qalır. Belə olan halda boşanmayıb nə etməlidir? Mən özüm boşanmışam. Sizə deyim ki, çox xoşbəxtəm. İndiki dövrdə ən xoşbəxt qadın heç vaxt ailə qurmayan qadındır".

***İlkin Məmmədkərimov***



MƏTANƏT

# Soyunan müğənnilərin soyundurduğu mahnılarımız

***Fikir vermisinizsə, müğənnilər iki hissəyə bölünür. Səsi, istedadı olanlar və səs, istedaddan xəbəri olmayanlar. Birincilərə hörmətimiz sonsuzdur. Çünki onlar özlərinə hörmət edirlər. Necə edirlər? Öncə səsləri var deyə meydana çıxırlar. İkincisi, geyimləri o qədər yerində olur ki, səslə geyimin harmoniyasına heyran qalırsan.***

İkincilər, yəni səsi olmayanların təbii ki, özlərinə hörmət hissi yoxdur. Niyə? Çünki səsi olmayan bir insanın əlinə mikrofon götürüb mahnı oxuması onun özünə saygısızlıqdan başqa bir şey deyil. Onlar özləri də bunu çox yaxşı bilirlər. Odur ki, ikinci yola əl atırlar: soyunurlar. Niyə soyunurlar? Ona görə soyunurlar ki, olmayan səslərini o aşağı-yuxarılı "dekolitələr" ört-basdır etsin.

Digər bir məsələyə diqqət çəkmək istəyirəm. Heç şahidi olmuşunuz ki, bu soyunan-yeni bədəninin mübhəm hissələrini tamamilə millətin qarşısına çıxaran müğənnilər bir xalq və bəstəkar mahnılarını olduğu kimi ifa etsin? Bu, mümkün deyil. Çünki soyunan müğənnilər mahnıların da orijinal "geyimini" əynindən çıxarıb başqa bir "geyim" geyindirirlər.

Yəqin belə müğənniləri və onların ifasını görməmiş deyilsiniz. Əgər müşahidə etməmisinizsə, onda bundan sonra bir qədər diqqətli olun, dediyimi təsdiq edəcəksiniz. Məsələn, bir-iki mahnı adı çəkim, vaxtınız olanda qulaq asın, diqqət edin, görün, "Ay bəri bax, bəri bax", "Qal, sənə qurban" mahnılarını nə günə qoyub "müasir" müğənnilər. Necə ki, paltarları aşağıdan, yuxarıdan "dekolitəlidir" və ya insanın ağlına gəlməyəcək dərəcədə "müasirdir", mahnılar da geyimləri ilə həmahəng vəziyyətə salınır.

"Oranjiman" maşını biri var, normal işləyə, yeni hər hansı mahnıya bir toxunuş edə, biri də var, o qədər qeyri-normal işləyə ki, mahnının altını üstünə çevirə, orijinalından əsər-əlamət qalmaya. Əslində "oranjimançıda" da günah görmək olmaz. Çünki onlar mahnını kim üçün yenilədiyini yaxşı bilirlər. Bilirlər ki, onu kim oxuyacaq, geyimi, hərəkəti nədir, ona uyğun da "oranjiman" edib mahnının da paltarını soyundururlar ki, müğənni ilə oxşar olsun.

Beləliklə, hələ bir-iki mahnının adını çəkdim, bu siyahını istənilən qədər uzatmaq olar. Bunu oxucular məndən də yaxşı bilirlər. Və həm mən adlarını çəkdiyim mahnıları, həm də özlərinə məlum olan belə soyundurulmuş mahnıları diqqətdən keçirib onları ifa edən müğənniləri də göz qarşısına gətirəndə dediklərimlə tamamilə razı olacaqlar ki, bəli, soyunan müğənnilər bizim bir-birindən gözəl mahnılarımızın orijinallığına necə xələl gətirir.

Belə müğənni və mahnılarla qarşılaşanda onlara yazılan rəyləri də oxuyuram. Və sevinirəm ki, sağ olsunlar, çoxsaylı insan bu geyimlərlə xalqın qarşısına çıxanların da, mahnılarımızı bu günə qoyanların da əleyhinədir, onları yaxşıca tənqid edirlər.

Başqa çarə yoxdur. Biz həm dəyərlərimiz, həm də musiqimizin toxunulmazlığı üçün mübarizə aparmalıyıq. Əks təqdirdə qarşıdakı illərdə bədəninin gizli qalmalı hissəsini açıb xalqın içinə utanmadan çıxan və soyundurduğu mahnılarla musiqimizə zərbə endirən daha çox müğənni görəcəyik.

İmkan verməyək! Harada gördük, tənqid edək, ictimai qınağa çevirək, rəylər yazaq. Bu xalqın dəyərlərinin dəyərini yalnız özü bilir və onun qorunmasını da özü həyata keçirməlidir.

# Zamanın diktəsi ilə qazanılan müstəqillik

Hər bir xalqın dünya miqyasında böyük hörmət, nüfuz sahibi olmasını şərtləndirən əsas amillərdən biri də milli mücadilənin önündə olan, xalqı hər bir çətinliklərdən qoruya bilən, hədəflərə çatmaqda böyük zəhmət, uzaqgörən siyasət yürüdən liderə ehtiyac var. O lider ki, həyatını, sağlamlığını xalqının azadlığına, firavan həyat əldə etməsinə həsr edir, o lider ki, hər cür təzyiqlərə, təhdidlərə baxmayaraq ruhdan düşmədən dövlətinin ucalması üçün gecə-gündüz çalışır. Təəssüf ki, belə fenomen liderləri bəşəriyyət yüz, bəzən isə min ildə bir dəfə yetişdirir. Xoşbəxt o xalqlardanıq ki, bəxtimizə, taleyimizə Ulu Öndər Heydər Əliyev kimi dahi şəxsiyyət, uzaqgörən siyasətçi düşdü. O bütün ömrünü xalqının formalaşmasına, dövlətinin inkişafına həsr etdi, heç zaman yorulmadı, heç bir zaman geri çəkilmədi. Daim çalışdı, zəhmət çəkdi və nəhayət böyük amalının, yüksək ideyalarının, uzaqgörən siyasətinin bəhrəsi olaraq Azərbaycan dövləti quruldu.

Dahi Öndərimiz Heydər Əliyev zamanında deyirdi ”gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq”. Bəli, o gün artıq mövcuddur. Bugünkü güclü və qüdrətli Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəri olaraq dünyanın ən nüfuzlu, sayılan, seçilən dövlətlərindəndir. Azərbaycan dövləti Ulu Öndərimiz Heydər Əliyevin müdrik siyasətinin həyata keçirilməsinin nəticəsi olaraq Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 30 il erməni işğalı altında olmuş torpaqlarımızın azad edilməsinə nail olundu. Artıq heç bir münaqişəli ərazi qalmayıb. Uğurlar, qələbələr var. Bu gün ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycan dövləti var. Bütün bunlara görə təbii ki, Ulu Öndər Heydər Əliyevə minnətdarıq. Həqiqətdən də nə qədər Azərbaycan dövləti və xalqı yaşayacaqsa, Ulu Öndər Heydər Əliyevin ideyaları da yaşayacaq. Çünki Dahi Öndərimiz Heydər Əliyevin ideyaları, əsasını qoyduğu siyasət yalnız və yalnız xalqımıza və dövlətimizə xoşbəxtlik və firavan həyata bəxş edib, qürurlu dövlət imici yaradıb.

## Konstitusiya Aktının qəbul edildiyi tarix

Mövcud reallıqlara əsasən demək olar ki, Azərbaycan xalqı müxtəlif dövrlərdə çətinliklərlə, ağır, üzücü problemlərlə üzləşsə də, heç bir zaman hədəfindən və məqsədindən əl çəkməyib. Özünə və üzə çıxacaq liderinə inanıb. Liderinin olmaması səbəbindən Azərbaycan xalqı çox əziyyətlər çəkib, məşəqqətlər görüb. Elə uzağa getmədən, ötən əsrin əvvəllərində qazandığımız müstəqilliyimizin liderin olmaması səbəbindən itirməsini misal olaraq göstərmək olar. 1918-ci ilin mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti quruldu. AXC-nin strukturları formalaşdı, xarici ölkələrlə əlaqələr quruldu. Lakin daxili çəkişmələr və bu çəkişmələri aradan qaldıra biləcək liderin olmaması AXC-ni ciddi problemlərlə üz-üzə qoydu. Bu vəziyyətdən istifadə edən işğalçı Rusiya Azərbaycanı işğal etdi. Bununla da AXC -nin mövcudluğuna son qoyuldu. Azərbaycan xalqı 71 il sovetlərin tərkibində azadlıq eşqi ilə daxili mübarizə apardı. Nəhayət istəklər nəticə verdi. Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə qəbul etdi. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 18 oktyabr tarixli sessiyasında ”Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı yekdilliklə qəbul edildi. 1992-ci ilin mayında Milli Məclis Azərbaycan Respublikasının Dövlət himnini (musiqisi Ü.Hacıbəyov, sözləri Ə.Cavad), az sonra üçrəngli bayraq, içində alov olan səkkizguşəli ulduz təsvirli Dövlət gerbini təsdiq etdi. Azərbaycan Respublikasının müstəqilliyini dünya dövlətləri tanıdı. 1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olundu, bu təşkilatın qəbul və təsdiq etdiyi bir çox mühüm beynəlxalq konvensiya və paktlara qoşuldu.



**"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir"**

*Heydər Əliyev*
*Azərbaycan xalqının Ümummilli Lideri*

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi: ”Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir”. Haqlı və əsaslı fikirdir. Təəssüflər olsun qazanılan qələbələri qoruyub saxlamaq çətinliklər yaradırdı. Çünki hər bir fəal təbəqə qurulan hakimiyyət aparatında özünə layiq olduğu tutmağa çalışırdı.

1992-ci ildə hakimiyyəti zəbt edən AXC-Müsavat cütlüyü səhv, yanlış siyasəti ilə ölkədə həlli mümkün olmayan problemlər yaratdı. Qanunsuz silahlı dəstələri hər bir kənd və qəsəbələrdə, şəhərlərdə meydan sulayırdılar. İqtidarın səriştəsizliyi nəticəsində Azərbaycan iqtisadi böhranın məngənəsində boğulur, ölkə parçalanırdı. 1993-cü il 4 iyununda Gəncədə qiyam baş verdi. Gəncədə baş verən hərbi qiyam ölkədə cəriyan edən xaos və anarxiyanın, hərci-mərcliyin kulminasiya nöqtəsi oldu. AXC-Müsavat iqtidarı mövcud problemləri həll etmək əvəzinə xalqın üzərinə silahlı dəstələr göndərib, qırğınlara yol açan fəaliyyət yolu tutdular. Bundan istifadə edən erməni hərbi birləşmələri xarici güclərin hərbi siyasi dəstəyi ilə ardıcıl olaraq torpaqlarımızı işğal edirdi.

Dövlət müstəqilliyinin itirilməsi, vətəndaş müharibəsinin qaçılmaz olduğu bir vaxtda ölkə ziyalıları bir araya gələrək Ulu Öndər Heydər Əliyevin Bakı şəhərinə gəlib hakimiyyət sükanı arxasına keçməsi çağırışını etdilər. Bununla bağlı 1992-ci ilin oktyabrın 16-da ”91” lərin ”Səs” qəzeti vasitəsi ilə Dahi Öndər Heydər Əliyevə müraciəti ünvanlandı. Ziyalıların Ulu Öndərə ünvanlanan müraciətində qeyd olunur ki, indiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz!: ”Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu, peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü, aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bugünü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu partiyanın mövqeyində dayanacaqlar. Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar”.

Ziyalıların müraciətinin sonunda bir daha qeyd edilir ki, müraciətə minlərlə Azərbaycan vətəndaşı qoşulmağa hazırdır: ”Hələlik isə ilk addım olaraq bunu bir qrup ziyalılar adından biz edirik. Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir”. Ürəyi hər zaman xalqının istək və arzuları ilə döyünən Dahi Öndərimiz Heydər Əliyev ziyalıların müraciətinə müsbət münasibət bildirdi.

## YAP-ın yaradılması və uğurlara gedən yol

Ulu Öndərimiz Heydər Əliyev 1992-ci il oktyabrın 24-də ”Səs” qəzeti vasitəsi ilə ziyalıların müraciətinə cavab məktubunda qeyd edir ki, Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də Məni narahat edir: ”Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur.Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğulur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək, yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram”.

Xalqın istək və arzusuna uyğun olaraq 1992-ci il noyabrın 21-də 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Konfransda Ulu Öndərimiz Heydər Əliyev partiyanın Sədri seçildi. Ulu Öndər Heydər Əliyev tarixi çıxışlarının birində YAP-ın yaranması tarixindən danışarkən demişdir: ”YAP Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir. O, bir adamın istəyi ilə yaranan partiya deyildir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan adamların şəxsi təşəbbüsü ilə, onların ətrafında toplaşan adamların təşəbbüsü ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərəsinin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır”.

Yeni Azərbaycan Partiyasının yaranması ilə ölkədə gələcəyə ümidlər artdı. İnsanlar axın-axın Ulu Öndərimizin qurucusu olduğu partiyaya üzv olurdular. YAP -ın qurucusu, Ulu Öndərimiz Heydər Əliyev xalqın çağırışlarına səs verərək 1993-cü il iyunun 15-də Bakıya gəldi. Bundan sonra gərgin iş başladı. Görülən işlərin, həyata keçirilən siyasətin nəticəsi olaraq qısa müddətdə ölkəmizdə siyasi sabitliyə, iqtisadi dirçəlişə nail olundu. Bütün sahələrdə olduğu kimi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Dahi Öndərimiz Heydər Əliyev mütərəqqi addımlar atdı, qərar və fərmanlar imzaladı. Milli sərvətimiz olan yeni Konstitusiyanın qəbul edilməsi xalqımıza əvəzsiz xəzinə bəxş etmiş oldu. Müstəqil Azərbaycanımızın ilk Konstitusiyası Dahi Öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlandı və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edildi. 1994-cü il sentyabrın 20-də əfsanə kimi görünən ”Əsrin müqaviləsi” neft sazişi imzalandı. ”Əsrin müqaviləsi” yeni neft strategiyası Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. Bununla Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının əsası qoyuldu.

İqtisadi və siyasi uğurlar Azərbaycana yeni-yeni qələbələr gətirdi. Bu qələbələr 2003-cü ildə Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli siyasi varisi, Ölkə Prezidenti İlham Əliyevin Prezident seçilməsindən sonra daha geniş və davamlı xarakter aldı. Ən böyük uğur isə heç şübhəsiz ki, 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən Müharibəsi ilə 30 il erməni işğalı altında olan torpaqlarımızın azad edilməsidir. Sonrakı mərhələdə, yəni 2023-cü il sentyabrın 19-da başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror tədbirləri ilə Azərbaycan dövləti Xankəndidə 30 ildən çoxdur ki, separatçılıqla məşğul olan terrorçu dəstələri və onların başçılarını məhv etdi. Bununla da Azərbaycan dünyanın ən güclü və qüdrətli dövləti olduğunu nümayiş etdirdi. Bu gün işğaldan azad edilən ərazilərdə geniş quruculuq, təmir, bərpa, tikinti işləri həyata keçirilir. İnsanlar tədricən öz doğma yurd-yuvalarına qayıdırlar. Bu qayıdış isə əbədidir.

**İLHAM ƏLİYEV**




# Görünməz qəhrəmanlar: kənd qadınları

## 15 Oktyabr Beynəlxalq Kənd Qadınları Günüdür

***Birləşmiş Millətlər Təşkilatı tərəfindən qadınların kənd təsərrüfatı istehsalında, resurslardan davamlı istifadədə, ərzaq istehsalı və təhlükəsizliyində əhəmiyyətli payına əsaslanaraq elan etdiyi Beynəlxalq Kənd Qadınları Günü, yaxud Qadın Fermerlər Günü 2008-ci ildən etibarən hər il oktyabrın 15-də qeyd olunur.***

Beynəlxalq Kənd Qadınları Günü ideyası ilk dəfə 1995-ci ildə Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən IV Ümumdünya Qadınlar Konfransı zamanı qadınların səlahiyyətlərinin artırılması və onlara hörmət edilməsi ideyası kontekstində müzakirə edilib. Oktyabrın 16-sı Ümumdünya Ərzaq Günü kimi qeyd olunduğundan kənd qadınlarının kənd təsərrüfatı, ərzaq istehsalı və ərzaq təhlükəsizliyinə verdiyi töhfənin tanınması üçün oktyabrın 15-nin Beynəlxalq Qadın Fermerlər Günü kimi qeyd olunması təklif olunub.

### Qadın fermerlərin iqtisadiyyatda rolu

Həm dünyada, həm də ölkəmizdə kənd təsərrüfatı istehsalının və kənd həyatının davamlılığının təmin edilməsində ən mühüm rolu kənd qadınları oynayır. Ancaq istər iqtisadi, istərsə də sosial baxımdan kənd qadınları cəmiyyətdə layiq olduqları sosial-iqtisadi mövqeyə çata bilmirlər. Bunun arxasında duran ən mühüm amil kənd həyatında qadınların kişilər kimi istehsalçı və ya fermer kimi görünməməsidir.

Kənd təsərrüfatı işlərində adətən, qadınlar kişilərin köməkçiləridir. Baxmayaraq ki, kənd təsərrüfatı işlərində kişilər qədər əməkləri var, amma qadınların əksəriyyəti özlərini fermer kimi görmürlər. Bundan əlavə, gündəlik ev işləri, həyətyanı sahənin əkib-becərilməsi əsas iş-



dən əlavə qadınların təbii vəzifəsi kimi görülür. Daha aydın desək, bütün günü əkin sahələrində, tarla və bostanlarda işləyən qadın evə qayıtdıqdan sonra da həm evdə, həm də həyətyanı ərazidə təsərrüfatla məşğul olur.

Xüsusilə, qadınların istehsal prosesində fermer kimi görünməməsi, qazanılan gəlirin qiymətləndirilməsi zamanı qadın əməyinin hesablanmaması kənd təsərrüfatı işlərində qadınların iştirakını getdikcə azaldır.

Qadınların fermerdən çox evdar qadın kimi görünməsi onların əməyinin rəsmi statistikada yer almamasına səbəb olur. Halbuki evdar dediyimiz hər kəndli qadın bir təsərrüfat idarə edir. Qadınlar kənd həyatında əvəzolunmaz əhəmiyyətlərinin fərqində deyillər. Xüsusilə, bir çox inkişaf etməmiş və inkişaf etməkdə olan ölkələrdə qida istehsalı, qida məhsullarının mühafizəsi və marketinq bütünlüklə qadınların üzərinə düşür.

Dünyada 500 milyondan çox kənd qadını yoxsulluq həddinin altında yaşayır. Afrikada ərzaq ehtiyaclarının 60-80%-i kənd qadınları tərəfindən istehsal olunur, Asiyada düyü əkinçiliyinin 50%-dən çoxu qadınlar tərəfindən həyata keçirilir, sənayesi inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı işlərinin 30%-i qadınlar tərəfindən həyata keçirilir. Afrikanın bəzi yerlərində qadınlar ailə başçılarının 60%-ni təşkil edir, Afrikada içməli su və yanacağa olan ehtiyacın 90%-i qadınlar tərəfindən qarşılanır və Afrikada əsas qidalar tamamilə qadınlar tərəfindən emal olunur.



### Assosiasiya sədri: ”Kənd qadınları haqqında çox stereotiplər var”

Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qənbərova bildirir ki, Assosiasiya 2018-ci ildə Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə yaradılıb və bu Assosiasiyanın yaradılmasında məqsəd kənd qadınlarının, regionların sosial və iqtisadi inkişafına olan töhfəsini artırmaq və onu dayanıqlı etmək olub: ”Kənd qadınlarının istər sosial, istər iqtisadi inkişafa olan töhfəsini artırmaq üçün onların cəmiyyətə inteqrasiyası lazımdır, onların evdən çıxıb hansısa bir işlə məşğul olması, hansısa bir tədbirə, hansısa iştirakını təmin etmək lazımdır, onların qərarvermədə iştirakının olması lazımdır.

Kənd qadınlarının əsas problemi onların cəmiyyətə zəif inteqrasiya olunmasıdır və bunun da çox səbəbləri var. Kənd qadınları haqqında çox stereotiplər var və o stereotiplərin yaranmasının da səbəbi kənd qadınlarının cəmiyyətdən kənarda qalması, cəmiyyətin qaynar məsələlərinə onların müdaxilə edə bilməməsidir. Biz bunun çıxış yolunu onda görürük ki, kənd qadınlarının bacarıqları artırılmalıdır”.

Assosiasiya sədri bildirir ki, bunun üçün biz çox təşəbbüslər irəli sürüblər: ”Bu təşəbbüslərdən biri də kənd qadınlarının rəqəmsal bacarıqlarının artırılmasıdır. İndi zəmanəmiz dövrümüz, rəqəmsallıq dövrüdür. Onlar rəqəmsal aləmdən kənarda qaldıqca ictimaiyyətə qoşula bilmirlər. Kənd qadınları həm təsərrüfat, həm də təsərrüfatdan kənar, qeyri-təsərrüfat bizneslərlə məşğul olurlar və bu bizneslərin inkişafı üçün, onların dayanıqlı olması üçün onların genişləndirilməsi üçün də inteqrasiya lazımdır. Onların ələqələri olsun və o ələqələr vasitəsilə onlar məhsul bazara çıxartsınlar, onlar satış eləsinlər və bütün bu işlərdə də məqsəd odur ki, onlar öz ailələrinə iqtisadi dəstək göstərsinlər.”



Müsahibimiz deyir ki, 2021-ci ildən Kənd qadınlarının rəqəmsal gücləndirilməsi kampaniyasına başlayıblar və bu kampaniya çərçivəsində bir çox kəndlərdə bir çox qadınlara qadın qruplarına rəqəmsallıq təlimləri verilib: ”Müxtəlif şirkətlərdən smartfonlar, dizüstü kompüterlər rəqəmsal avadanlıqlarla kənd qadınlarını təchiz eləməyə çalışırıq ki, onlar şəbəkələrə çıxa bilsinlər, elektron ticarətə çıxa bilsinlər. İndi kənd qadınlarının inkişafını ləngidən də onların necə deyərlər, rəqəmsal bacarıqlarının zəif olmasıdır”.

### Kənd qadınları kollektiv təsərrüfat yaradıblar

Gülbəniz xanım deyir ki, kənd qadınları özləri özlərinə iş qururlar, bir-birinə dəstək olurlar: ”Təsəvvür edin, qadınlar qrup şəklində yığışırlar. Onlar belə təsərrüfatla məşğul olanda kənddəki çox sterotipləri qırırlar. Qadınlar var ki qrup şəklində bir ildə 630 ton tərəvəz istehsal ediblər. Məsələn, Bərdənin Böyük Göyüşlü kəndində Fatimə qadın qrupu var. Sonra Goranboyun Boluslu kəndində Şəfa qadın qrupu var. 23 Rayonda 56 qadın inkişaf və müəssisə qrupları yaratmışıq ki, onlar kollektiv bizneslərlə məşğul olurlar və bu onların həyatını dəyişir.

Kollektiv şəkildə məşğul olanda həm ailədə söz-söhbət olmur, həm də onlar bir-birinə dəstək olaraq bu işi görürlər və çox da böyük uğurları olur. Məsələn, ailədə gənc qadın səhər istəyir ki, getsin tarlada işləsin, tutaq ki, tərəvəz əksin, satıb gəlir əldə etsin. Təbii ki, ona deyəcəklər ki, sənin tək nə işin var tarlada, bir təhlükə ola bilər. Amma onlar qrup şəklində gedirlər. Səhər bir-birini səsləyirlər, toplaşırlar, çox şən halda tarlaya gedirlər. İşlərini görürlər, həm də bir-biri ilə ünsiyyətdə olurlar”.

### Fermer qadınlar azdır

Qadınlar dünya kənd təsərrüfatında çalışan işçilərin 43%-ni təşkil edir. Onlar dünyada sosial-iqtisadi davamlılığın açarıdır, inkişaf prosesləri üçün əhəmiyyətli və əvəzolunmazdırlar. Hər nə qədər təsərrüfatdakı böyük əməkləri gözəgörünməz olsa da, onların çəkdikləri zəhmət sayəsində ailə təsərrüfatları genişlənir, inkişaf edir.

Hazırda kəndlərdə təsərrüfatla məşğul olan ailələrdə ailə təsərrüfatının davam etdirilməsi məsələsi, əsasən, oğlan övladların üzərinə düşür. Bunun da səbəbi qızın evdə müvəqqəti olduğunu düşünmələri, qızların ata evinin təsərrüfatına faydalı olmayacağını hesablamalarıdır ki, nəticədə qızlar oxumursa ailə qurmağa və ər evində təsərrüfat işləri ilə məşğul olmağa sövq edilir.

Qadınlar kənd təsərrüfatında fəal rol oynamağa, ümumiyyətlə, inamlı və həvəslidirlər. Onlar hesab edirlər ki, passiv həmcinsləri bu sahədə fəal olsaydılar, kişilərdən daha uğurlu olardılar. Bizim xalqımızın yaxın tarixində əmək qəhrəmanı olmuş onlarla qadın fermerimiz, pambıqçı, traktorçu, kombaynçılar olub ki, kənd təsərrüfatının bir çox sahəsində onların öncüllüyü ilə ciddi yenilik və nailiyyətlər əldə edilib.

Hazırda ölkəmizdə heyvandarlıqla məşğul olan təsərrüfatlarda qadınların üzərinə düşən yük böyükdür. Heyvan mənşəli məhsulların qadınlar tərəfindən hazırlanaraq satıldığı bu evlərdə qadınlar heyvanların baxımı və sağlamlığında da fəal rol oynayırlar. Ev təsərrüfatlarının şəxsi istehsalı üçün salınan bağlar, meyvə bağları və orada yetişdirilən məhsullar ümumiyyətlə qadınların himayəsindədir. Alın təri ilə torpağa can, əllərinin qabarı ilə ailə büdcəsinə töhfə verən bütün qadınların günü mübarək!

***Lalə Mehralı***

ARAŞDIRMA

# Yuxuların SİRRİ: niyə gördüyümüz xəyallar bizə təsir edir?

***Yuxu, insan həyatının ayrılmaz bir hissəsidir və bədənimizin və beynimizin bərpası üçün vacibdir. Yuxu zamanı beyin müxtəlif görüntülər, səslər və hisslər vasitəsilə fərqli "xəyallar" təqdim edir. Bu xəyallar bəzən çox real, bəzən isə tamamilə məntiqsiz və qəribə olur. Yuxuların mənası, səbəbləri və zehni təsirləri elmi tədqiqatların əsas mövzularından biridir.***



## Yuxu nədir?

Yuxu zamanı beyində sinir hüceyrələrinin fəaliyyəti davam edir, amma bu fəaliyyət günün hadisələrinə, hisslərə və yaddaşlara bağlı olaraq dəyişir. Yuxular REM (Rapid Eye Movement) yuxu fazasında daha çox görülür. Bu mərhələdə beyin aktivliyi artar və insan daha çox rəngli, təsirli və emosional yuxular görür.

## Yuxuların niyə belə olduğu haqqında nəzəriyyələr

Freydin nəzəriyyəsi: Sigmund Freud yuxuları insanın şüursuz arzularının ifadəsi kimi qiymətləndirmişdir. O, yuxuları gizli istəklərin simvolları kimi görürdü.



Jungun nəzəriyyəsi: Carl Jung isə yuxuları kollektiv şüuraltı simvolların və arxetiplərin təzahürü kimi qiymətləndirmişdir.

## Beyin fəaliyyəti və sinir elmi nəzəriyyələri

Yuxular beynin yaddaşı emal etməsi, öyrənilən məlumatların sintez olunması və zehni sağlamlığın qorunması üçün vacibdir.

Bəzi tədqiqatlar göstərir ki, yuxular stresin azaldılması və emosional tarazlığın bərpası üçün əhəmiyyətlidir.

## Problem həlli və kreativlik



Yuxular insanların gündəlik problemlərə yeni baxış bucağı ilə yanaşmasına və yaradıcılığın inkişafına kömək edir.

Yuxu zamanı beynin müxtəlif hissələri sərbəst əlaqə quraraq qeyri-adi ideyalar yarada bilər.

## Yuxuların zehni təsirləri

Emosional təsirlər: Yuxular insanın duyğusal vəziyyətini əks etdirir və bəzən qorxu, həyəcan, sevinc kimi güclü emosiyalar yarada bilər. Kabuslar isə stress və narahatlığı artırır.

Psixoloji sağlamlıq: Yuxular şüuraltını ifadə etdiyi üçün zehni sağlamlıq problemlərinin diaqnozunda və müalicəsində əhəmiyyətli rol oynaya bilər.

Yaddaş və öyrənmə: Yuxu yaddaşın möhkəmlənməsində və məlumatların işlənməsində mühüm funksiyaya malikdir. Yuxular insanın öyrəndiyi biliklərin beynində sistemləşdirilməsinə yardım edir.

Kreativlik və innovasiya: Yuxular insanların yeni ideyalar və həll yolları tapmasına yardımçı olur, bir çox məşhur ixtiraçı və sənətkar yuxulardan ilham almışdır.

## Dünya praktikasına nəzər yetirdikdə isə...

Dünya praktikasında yuxular insan psixologiyası, nevrologiyası və ümumi sağlamlıq üçün önəmli araşdırma sahəsidir. Yuxular həm elmi, həm də praktik səviyyədə müxtəlif üsullarla tədqiq edilir və istifadə olunur. Psixoterapiyada, tibb sahəsində və yaradıcılıqda yuxuların dəyəri və təsiri geniş şəkildə tanınır və bu sahədə yeni texnologiyalar gündəlik həyatı daha da yaxşılaşdırmaq məqsədilə tətbiq olunur. Beynəlxalq elmi ictimaiyyət REM yuxu fazasında yuxuların yaranması və onların neyrofizioloji əsasları üzərində çoxsaylı tədqiqatlar aparır. ABŞ, Avropa və Yaponiya kimi ölkələrdə aparılan tədqiqatlar göstərir ki, yuxular yaddaşın möhkəmlənməsi, emosiyaların işlənməsi və psixoloji sağlamlığın qorunmasında vacib rol oynayır.

Neuroimaging (beyin görüntüləmə): MRI, PET kimi metodlarla yuxu zamanı beynin müxtəlif sahələrinin aktivliyi izlənilir.

Yuxu klinikaları: Dünyanın bir çox yerində yuxu pozuntularının diaqnozu və müalicəsi üçün ixtisaslaşmış klinikalar mövcuddur.

## Psixoloji terapiyada yuxuların istifadəsi

Psixoanalitik və psixodinamik terapiya: Sigmund Freud və Carl Jung-un təsirləri ilə yuxular terapiya prosesində şüuraltı konfliktlərin aşkarlanmasında istifadə olunur.



Koqnitiv davranış terapiyası (CBT): Xüsusilə kabusların müalicəsində yuxu təlimləri və yuxu reallığının dəyişdirilməsi metodları tətbiq edilir.



İdarəolunan yuxu (Lucid Dreaming) terapiyası: İdarəolunan yuxu texnikaları ilə xəyalın nəzarətinin öyrənilməsi, kabusların azaldılması və psixoloji problemlərin aradan qaldırılması üçün istifadə olunur.

## Yuxular və kreativlik

İxtiraçılar və sənətkarlar: Dünya praktikasında çox məşhur sənətkar və alimlərin yuxulardan ilham aldıqları məlumdur. Məsələn, Albert Eynşteyn, Salvador Dali və Paul McCartney yuxularının onlara yaradıcılıqda kömək etdiyini bildiriblər.

Yaradıcılıq laboratoriyaları: Bəzi şirkətlər və institutlar yuxu və yuxu texnologiyalarından istifadə edərək yaradıcılığı artırmaq üçün proqramlar təşkil edir.

## Bəs, yuxular niyə bu qədər müxtəlif olur?

Yuxuların məzmunu və təbiəti insanın fiziki vəziyyəti, zehni durumu, gündəlik həyat təcrübələri və hətta genetikasından təsirlənir. Stressli və ya emosional günlərdə daha çox narahat yuxular görülə bilər. Həmçinin, yuxular bəzən beynin təsadüfi siqnallara cavab verməsi kimi də izah olunur.

Yuxular insan həyatının maraqlı və hələ tam başa düşülməmiş hissəsidir. Onlar həm şüuraltının əks-sədası, həm də beynin yaddaş və emosional proseslərinin bir parçasıdır. Yuxuların tədqiqi insan psixologiyasını, nevrologiyanı və bədən sağlamlığını daha dərindən anlamağa kömək edir. Yuxuların həm zehni, həm də emosional təsirləri gündəlik həyatımıza təsir göstərir və onların öyrənilməsi bizim psixoloji rifahımıza müsbət təsir edə bilər.

***Arzu Qurbanlı***

# Taliban borcunu necə qaytarır?

## Əfqanıstan-Pakistan qarşıdurmasında Hindistan izi

***Əfqanıstan deyəsən kimin sayəsində işğala son verdiyinin fərqində deyil, ya da borcunu belə qaytarır. Məsələ Əfqanıstan XİN Administrasiyasının rəhbəri Mottakinin Dehliyə səfəri və orada imzalanan bəzi sənədlərdən sonra başladı. Əvvəlcə Əfqanıstan və Pakistan sərhədində silahlı toqquşmalar baş verdi və nəticədə hər iki tərəfdən onlarla əsgər öldü. Kabil bir neçə gün əvvəl Pakistanın Əfqanıstandakı hədəflərə endirdiyi hava zərbələrinə cavab olaraq "qisas əməliyyatı" həyata keçirdiyini açıqladı. İran, Qətər və Səudiyyə Ərəbistanı hər iki tərəfi təmkinli olmağa çağırıb, bundan sonra Əfqanıstan Talibanı öz mövqelərinə qayıdıb. Bu gərginlik Pakistanın yerli Talibanı dəstəkləməkdə ittiham etdiyi Əfqanıstan və Hindistan arasında yaxınlaşma fonunda baş verib.***



Əfqanıstanın Ali Rəhbərinin sözçüsü Zəbihullah Mücahid bazar günü jurnalistlərə bildirib ki, 2600 kilometrlik sərhəddə gecə ərzində gedən döyüşlərdə 58 pakistanlı əsgər həlak olub. Əfqanıstan tərəfində ən azı 20 Taliban döyüşçüsü öldürülüb və ya yaralanıb. Zəbihullah Mücahidin sözlərinə görə, əfqanlar əməliyyat zamanı Pakistan silahlarının "əhəmiyyətli miqdarını" və üç sərhəd postunu ələ keçirə biliblər. Geri çəkilmə qərarı Səudiyyə Ərəbistanı və Qətərin təmkinli olmağa çağırışları fonunda qəbul edilib. İran bu bəyanatı ilk verib, lakin Kabil onun çağırışını açıq şəkildə qəbul etməyib. Əfqanıstandakı əməliyyat uğurlu adlandırılıb.



İslamabad da bəyanat yayıb. Əvvəlcə dövlət kanalları mənbələrə istinadən Əfqanıstanın 19 sərhəd məntəqəsinin ələ keçirildiyi barədə məlumat yayıb, sonra media orqanları Pakistanın baş naziri Şehbaz Şərifə istinadən məlumat yayıb. O, Əfqanıstan əməliyyatını təxribat adlandırıb və qeyd edib ki, bu cür hərəkətlər "həlledici cavab alacaq". O, həmçinin Əfqanıstan hökumətini Pakistanda fəaliyyət göstərən terror təşkilatlarına dəstək verməkdə ittiham edib. Şehbaz Şərif qeyd edib ki, İslamabad "dəfələrlə Əfqanıstana Əfqanıstan ərazisindən Pakistana hücum etmək üçün istifadə edən Fitnə əl-Xəvaric və Fitnə əl-Hindustan kimi terror ünsürləri haqqında məlumat verib". Onun sözlərinə görə, əfqanlar kənar çağırışlara görə deyil, itkilərlə geri çəkilməyə məcbur olublar. Pakistan Taliban qruplarını Əfqanıstan Talibanlarına qarşı dəstəkləməkdə ittihamlar (hər ikisi əsasən puştunlardır) yeni deyil, lakin Əfqanıstan onların qonşu ölkədəki fəaliyyətlərində hər hansı əli olduğunu inkar edir. Bununla belə, payızın əvvəlindən Pakistan Talibanı sərhəd bölgəsində hücumların sayını xeyli artırıb və Pakistan təhlükəsizlik qüvvələri onlara qarşı reydləri gücləndirib. Təkcə sentyabr ayında hökumət qüvvələri onlarla yaraqlının məhv edilməsi barədə məlumat vermişdi.

Oktyabrın 9-da Əfqanıstanın Paktika əyalətinin Barmal rayonunda bazara hava hücumu və Pakistan Taliban liderlərini daşıyan zirehli maşının pilotsuz təyyarə ilə məhv edilməsi gərginliyin artması ilə nəticələnib. Kabil hava hücumunda İslamabadı günahlandırıb və cavab üçün hazırlıq gördüyünü açıqlayıb. Pakistan hadisəyə görə məsuliyyəti rədd etsə də, yerli media əməliyyatın təfərrüatlarını geniş şəkildə yayıb. Bildirilib ki, bazar tətili insan tələfatı ilə nəticələnməsə də, ona yaxın mağaza dağıdılıb. Əfqanıstandakı bu obyektin Pakistan Talibanının bazası olduğu deyilirdi. Həmçinin bildirilib ki, pilotsuz təyyarənin hücumu nəticəsində üç yüksək rütbəli yaraqlı öldürülüb: Pakistan Taliban lideri Nur Vəli Məhsud və onun potensial varisləri Seyfullah Məhsud və Xalid Məsud.

### İslamabad-Kabil münaqişəsi Dehlinin xeyrinədir

Hindistan kiçik texniki missiyasını səfirliyə yüksəltməklə Əfqanıstanla münasibətlərini təkmilləşdirdi. Bu, ABŞ-ın 2021-ci ildə qoşunları geri çəkməsindən sonra ölkəni idarə edən Talibana beynəlxalq arenada mövqelərini möhkəmləndirməyə kömək edəcək. Digər tərəfdən, Hindistana əzəli rəqibi Pakistanın zərərinə ölkədə öz təsirini genişləndirməyə imkan verir. Xüsusilə təhsil və digər sahələrdə qadınların hüquqlarını pozduğuna görə BMT-nin sanksiyaları altında olan Taliban rejimini indiyədək yalnız Rusiya tanıyıb. Hindistan Talibanı tanıdığını bəyan etməsə də, səfirliyin açılması faktiki olaraq onun Rusiyanın ardınca getməsi deməkdir.

Dörd il əvvəl Talibanın ABŞ və NATO müttəfiqləri üzərində qələbəsindən sonra Hindistan bir çox digər ölkələr kimi Əfqanıstandakı səfirliyini bağlayıb. 2022-ci ildə ticarət əlaqələrini saxlamaq, tibbi yardım göstərmək və digər humanitar yardım göstərmək üçün kiçik bir missiya göndərdi. Çin, Rusiya, Türkiyə, İran və Pakistan da daxil olmaqla təxminən onlarla ölkə Əfqanıstanda missiyalarını saxlayır. Talibanın xarici işlər naziri Əmir Xan Mottakinin Dehliyə etdiyi 6 günlük səfəri zamanı Hindistan səfirliyinin açılışını elan edib. Birləşmiş Millətlər Təşkilatı onun səyahət qadağasını müvəqqəti olaraq ləğv edib. Kabildəki siyasi şərhçi Hekmətullah Hikmət deyir ki, "Əfqanıstanın bölgə ölkələri, xüsusən də qonşuları ilə əlaqələr qurmağa çox ehtiyacı var. Onların tanınmasına ehtiyacı var". Əfqanıstan rəsmilərinin bəyanatları da Kabilin qonşuları ilə münasibətləri normallaşdırmağa çalışdığını göstərir. Hindistan Əfqanıstanın səfirlik açacağı ilk ölkələrdən biri olacaq. Əfqanıstan hökumətinin sözçüsü Zabihullah Mücahid bildirib ki, Əfqanıstan digər dövlətlər üçün heç bir təhlükə yaratmır. Bir sözlə, ilk baxışdan Əfqanıstanla digər dövlətlər arasında münasibətlərin normallaşması prosesi getdikcə geniş vüsət alır. Amma Pakistana gəlincə, hazırda normallaşmadan söhbət getmir. ABŞ prezidenti Donald Trampın Vaşinqtonun Kabil yaxınlığındakı Baqram hərbi bazasına nəzarəti bərpa etmək istədiyi barədə bəyanatı regionda sabitliyi yaxşılaşdırmayıb.

Hindistanın "Observer Research Foundation" analitik mərkəzinin beynəlxalq departamentinin rəhbəri Harş Pant deyir ki, bu fonda həm Dehli, həm də Kabil iki gücün - Hindistanın uzun müddətdir ərazi mübahisəsi olan Pakistan və Çinin çağırışlarına cavab olaraq bir-birinə yaxınlaşır. Üstəlik, Dehli Cənubi və Mərkəzi Asiyada nüfuz uğrunda Pakistan və Çinlə mübarizədə Əfqanıstandan dayaq kimi istifadə etməyə ümid edir. Lakin bu yaxınlaşma Talibanın hərəkətlərinin bəyənilməsi demək deyil. Dehli Talibanın etnik azlıqlara qarşı pis rəftarları, gender bərabərsizliyi və insan haqları vəziyyəti də daxil olmaqla bir çox işini bəyənmir. Lakin Hindistan Əfqanıstanla münasibətlərə praqmatik yanaşır, öz milli maraqlarına əsaslanaraq, Pant vurğulayır.

### "Oktyabr müharibəsi"

Pakistan və Talibanın nəzarətində olan Əfqanıstan arasında ilk böyük silahlı münaqişə baş verdi. Buna İslamabadın Kabildə olan Pakistan Talibanının lideri Müfti Nur Vəli Məhsuda sui-qəsd cəhdi səbəb olub. Əfqan Taliban hərəkatı Pakistanın sərhəd bölgələrini işğal edərək və Pakistanın təhlükəsizlik keçid məntəqələrini məhv etməklə cavab verib. Bir sıra İslam ölkələri İslamabad və Kabili təmkinli olmağa çağırıb. Lakin bu dəfə münaqişənin genişlənməsinin qarşısı alınsa belə, Əfqanıstan-Pakistan sərhəd bölgəsində və Əfqanıstan daxilində gərginliyin daha da artacağı gözlənilir. 9 oktyabr 2019-cu il axşam saatlarında Pakistan Hərbi Hava Qüvvələrinə məxsus F-16-lar Əfqanıstanın hava məkanını pozaraq Kabil və Xost, Paktika, Nanqarhar və Qəndəhar əyalətlərindəki hədəflərə bir neçə raket zərbəsi endirib. Pakistan hava zərbələri Əfqanıstan ərazisində yerləşən Təhrik-e-Taliban Pakistan (TTP) komandirlərini və infrastruktur elementlərini hədəf alıb.

Əfqan Talibanı rəsmi olaraq TTP liderlərinin, döyüşçülərinin və Əfqanıstan torpaqlarında infrastrukturun olmasını inkar edir. Bununla belə, İslamabad bilir ki, Əfqanıstan hazırda bir çox terrorçu-cihadçı təşkilatlar, o cümlədən Pakistan Talibanı üçün strateji arxa bazadır. TTP yaraqlıları "Əl-Qaidə" və "İslam Dövləti" (İD) terror təşkilatlarının yaraqlıları ilə birlikdə Talibanın nəzarətində olan Əfqanıstandan təlim düşərgələri, yeni cihadçılar üçün işə cəlbetmə mərkəzləri yaratmaq və region ölkələrində öz təsirlərini genişləndirmək üçün istifadə edirlər.

Əslində Əfqanıstan və Pakistan talibanları vahid cihadçı təşkilatdır və onların liderləri bir-birini fəal şəkildə dəstəkləyir. Əfqanıstanda ABŞ və NATO qüvvələrinin olduğu müddətdə Pakistan talibanı Əfqanıstan talibanı ilə birlikdə döyüşürdü. 2021-ci ilin avqustunda Kabildə hakimiyyətə gəldikdən sonra Əfqanıstan talibanı Pakistanda "İslam sistemi" qurmaq üçün İslamabada qarşı cihad aparmaqda pakistanlı yoldaşlarına kömək etməyə başladı. Amerikalıların Əfqanıstanda qoyduqları silah və texnikanın əhəmiyyətli bir hissəsi Pakistan Taliban hərəkatına verildi və bu, TTP-nin döyüş meydanında effektivliyini əhəmiyyətli dərəcədə artırdı və Pakistan təhlükəsizlik qüvvələri arasında itkilərin sayını artırdı.

Əfqanıstan Talibanı ilə uzun müddətdir davam edən gizli münasibətlərindəki bu dönüş İslamabad üçün şok oldu. Əvvəlcə Pakistan rəsmiləri TTP-yə dəstəyini dayandırmaq üçün Kabil rejimi ilə barışıq anlaşması əldə etməyə çalışıblar. Bu uğursuzluqla nəticələnən İslamabad Əfqanıstana qarşı iqtisadi sanksiyalar tətbiq etməyə başlayıb. Lakin bunlar da təsirsiz idi. İndi Pakistan Pakistan Talibanının başqa ölkədəki hədəfləri vurmaq üçün "İsrail taktikası" adlandırdığı üsula keçmək qərarına gəlib.

Oktyabrın 9-da axşam vurulan zərbənin Kabildəki hədəfinə dəydiyinə dair heç bir dəlil yoxdur: müstəqil mənbələr iddia edir ki, raketlə məhv edilən Nur Vəli Məsud olmayıb. Buna cavab olaraq, TTP yaraqlıları oktyabrın 10-da Pakistanın Xayber-Paxtunxva əyalətində 10-dan çox təhlükəsizlik qüvvəsini öldürərək ən azı altı "cavab əməliyyatı" həyata keçiriblər. Oktyabrın 11-də Əfqanıstan Taliban birləşmələri Durand xəttinin (Əfqan-Pakistan sərhədi, Kabildəki heç bir hökumətin rəsmi olaraq tanımadığı) əhəmiyyətli bir hissəsi boyunca Pakistan ordusunun sərhəd məntəqələrinə hücum edib. Bəzi məlumatlara görə, Taliban ağır silahlar, artilleriya və tanklardan istifadə edərək Pakistana soxularaq 20-yə yaxın postu məhv edib.

*Ardı Səh. 12*

# Taliban borcunu necə qaytarır?

## Əfqanıstan-Pakistan qarşıdurmasında Hindistan izi

Əvvəli Səh. 11

Pakistan ordusunun itkiləri 60-a yaxın ölü və 30-a yaxın yaralıya çatıb. Əfqanıstan Taliban mediasının məlumatına görə, amerikalılardan və NATO-dan da miras qalan Taliban döyüş təyyarəsi Pakistanın Lahor şəhərinə raket zərbəsi endirib. Digər mənbələr iddia edir ki, Pakistan F-16-larının Kabilə və Əfqanıstanın digər əyalətlərinə hücum etmək üçün oktyabrın 9-da axşam havaya qalxdığı Peşəvərdəki aviabaza da vurulub.

Pakistan Hərbi Hava Qüvvələri Əfqanıstanın bir sıra cənub və şərq əyalətlərində - Nanqarhar, Kunar, Xost, Paktika, Qəndəhar və Helmandda hədəflərə güclü hava zərbələri endirib. Pakistan məlumatlarına görə, bunlara təlim düşərgələri, anbarlar və TTP qərargahı daxildir. Əfqanıstan Talibanı da zərər görüb. Pakistan ordusu Əfqanıstan Talibanının Müdafiə Nazirliyinə aid təxminən 20 sərhəd keçid məntəqəsini ələ keçirib və 40-a qədər əfqan talibanını öldürüb.

Kabil və İslamabad arasındakı "Oktyabr müharibəsi" Əfqanıstan sülh prosesi üçün müxtəlif regional platformalara ağır zərbə vurub. Pakistan Hərbi Hava Qüvvələrinin Kabilə hücumu ilk dəfə Əfqanıstan Taliban hökumətinin nümayəndəsi Əmir Xan Müttəqinin region ölkələri ilə bərabər səviyyədə iştirak etdiyi Əfqanıstan üzrə Moskva Məsləhətləşmələr Formatının 7-ci iclasının yekunlaşmasından 40 saatdan az bir müddət sonra baş verib. Göründüyü kimi, oktyabrın 7-də Rusiya paytaxtında baş tutan xoş söhbətlər Pakistanı Əfqanıstana zərbə endirməkdən, Əfqanıstan Talibanını isə Pakistan əsgərlərinə hücumdan çəkindirə bilməyib. Əfqanıstan-Pakistan böhranı postsovet məkanında Trans-Əfqan Dəmir Yolu (Özbəkistan və ya Qazaxıstandan Əfqanıstan və Pakistan vasitəsilə Hind okeanı limanlarına) və ya TAPI qaz kəməri (Türkmənistandan Əfqanıstan və Pakistan vasitəsilə Hindistana) kimi "əsrin layihələri" arzusunda olanlar üçün ayıq-sayıq həyəcan siqnalı olmalıdır. Bu layihələr gözəl təqdim olunsa da, regionda toqquşan maraqların sərt reallığı ilə darmadağın edilir.

Qətər, İran və Səudiyyə Ərəbistanı Kabil və İslamabadı hərbi əməliyyatları dayandırmağa və danışıqlar masasına oturmağa çağırıb. Tamamilə mümkündür ki, bu çağırış bir neçə saat ərzində qəbul olunacaq (baxmayaraq ki, Pakistan ordusu oktyabrın 12-də günortadan sonra Qəndəhar əyalətindəki hədəflərə hücumu davam etdirib). Bununla belə, hərbi əməliyyatların dayandırılması Əfqanıstan Talibanı ilə Pakistan arasındakı əsas gərginliyi həll etməyəcək. Kabil çoxlu əfqan Taliban döyüşçüsünün daxil olduğu TTP-yə dəstəyini davam etdirəcək. Pakistan Talibanı İslamabadda "İsrailyönlü" Pakistan ordusuna və hökumətə qarşı "cihadını" gücləndirir. Nəticədə itkiləri artan Pakistan ordusu həm ölkə daxilində, həm də qonşu Əfqanıstanda TTP-yə təzyiqləri artıracaq. Bu, göz önündə heç bir qaçış olmayan bir pis dairədir.

***V.VƏLİYEV***

# MDB məkanında dostluq, əməkdaşlıq və inkişafın yeni mərhələsi



***Kəmalə ABBASOVA, tarix müəllimi***

2025-ci il oktyabrın 10-da Prezident cənab İlham Əliyevin Tacikistan Respublikasının paytaxtı Düşənbəyə səfəri və burada keçirilən MDB Dövlət Başçıları Şurasının iclasında iştirakı Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin inkişafında mühüm hadisə kimi qiymətləndirilir. Bu səfər təkcə regional əməkdaşlığın yeni istiqamətlərini müəyyən etməklə kifayətlənməyib, həm də Azərbaycan ilə Tacikistan arasında qardaşlıq və dostluq münasibətlərinin möhkəmlənməsini bir daha nümayiş etdirdi.

Düşənbədə keçirilən məhdud tərkibli iclasda Prezident cənab İlham Əliyevin çıxışı MDB məkanında əməkdaşlığın gələcək inkişaf istiqamətlərini müəyyən edən strateji məzmun daşıyırdı. Dövlət başçısı çıxışında Tacikistanın son illərdə əldə etdiyi uğurları yüksək qiymətləndirərək, bu nailiyyətlərin Prezident Emoməli Rəhmonun uzaqgörən siyasətinin nəticəsi olduğunu vurğuladı.

Prezident İlham Əliyev çıxışında iki ölkə arasında siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin ardıcıl şəkildə inkişaf etdiyini xüsusi qeyd etdi. Azərbaycan və Tacikistan xalqları qədim tarixi və mədəni bağlarla bir-birinə bağlıdır. Bu əlaqələr müasir dövrdə dövlət başçılarının qarşılıqlı səfərləri, imzalanan çoxsaylı sazişlər və ortaq layihələr vasitəsilə daha da möhkəmlənir. Azərbaycan tərəfi Tacikistanın paytaxtı Düşənbənin dinamik inkişafını, şəhərsalma sahəsində əldə etdiyi nailiyyətləri dost ölkə kimi böyük məmnuniyyətlə izlədiyini vurğulayır. Prezident cənab İlham Əliyev Düşənbənin ildən-ilə daha da gözəlləşməsini Tacikistan xalqının zəhmətsevərliyinin və dövlətin məqsədyönlü siyasətinin göstəricisi kimi dəyərləndirdi.

Prezident cənab İlham Əliyev çıxışında humanitar sahədə əməkdaşlığın MDB dövlətləri arasında münasibətlərin əsas sütunlarından biri olduğunu diqqətə çatdırdı. Azərbaycanın Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan olunması bu istiqamətdə mühüm hadisə kimi qeyd olundu.

Laçında keçirilən "MDB-nin Mədəniyyət Paytaxtı İli" tədbirlərinin açılış mərasimi təkcə Azərbaycan mədəniyyətinin zənginliyini nümayiş etdirmədi, həm də işğaldan azad edilmiş ərazilərin qısa müddətdə necə dirçəlməsinin canlı sübutu oldu. Bir vaxtlar tamamilə dağıdılmış Laçın şəhəri artıq müasir, yaşamaq üçün əlverişli bir məkana çevrilib. Bu, Azərbaycanın bərpa və quruculuq siyasətinin real nəticəsidir və MDB məkanında da yüksək qiymətləndirilir.

Prezident İlham Əliyev bu münasibətlə MDB dövlət başçılarına Azərbaycanın namizədliyinə göstərdikləri dəstəyə görə təşəkkürünü bildirdi. Laçının bu nüfuzlu statusu regionda mədəni əməkdaşlığın daha da dərinləşməsinə təkan vermişdir.

MDB məkanında keçirilən ən mühüm humanitar tədbirlərdən biri də 2025-ci ildə Azərbaycanda baş tutan III MDB Oyunları oldu. Prezident İlham Əliyev çıxışında bu tədbiri Birliyin həyatında xüsusi hadisə kimi qiymətləndirdi. 28 sentyabr - 8 oktyabr tarixlərində qədim Gəncə şəhərində - dahi Azərbaycan şairi Nizami Gəncəvinin vətənində keçirilən bu Oyunlar MDB məkanında idman, dostluq və qarşılıqlı hörmətin bayramına çevrildi. Yarışlara 13 ölkədən, o cümlədən MDB üzvləri və qonaq dövlətlərdən 1600-dən çox idmançı qatıldı. Oyunlar təkcə Gəncədə deyil, Qəbələ, Göygöl, Yevlax, Mingəçevir, Xankəndi və Şəki kimi digər şəhərlərdə də təşkil olundu.

Bu genişmiqyaslı tədbir Azərbaycanın beynəlxalq səviyyədə idman ölkəsi kimi nüfuzunu bir daha təsdiq etdi. MDB Oyunları eyni zamanda iştirakçı dövlətlər arasında dostluq, əməkdaşlıq və qarşılıqlı anlaşma ruhunu gücləndirdi.

Ölkə başçısı cənab İlham Əliyevin Düşənbə səfəri və MDB Dövlət Başçıları Şurasının iclasında iştirakı bir daha göstərdi ki, Azərbaycan regional əməkdaşlığın dərinləşməsində, beynəlxalq münasibətlərin inkişafında mühüm rol oynayır.

Səfər zamanı səsləndirilən fikirlər və irəli sürülən təşəbbüslər Azərbaycanın MDB məkanında humanitar, iqtisadi və siyasi əlaqələrin inkişafına verdiyi töhfələrin davamlı xarakter daşıdığını sübut edir. Cənab İlham Əliyevin çıxışı həm də sülh, qarşılıqlı hörmət və inkişaf prinsiplərinə əsaslanan yeni əməkdaşlıq modelinin formalaşmasına çağırış idi. Bu gün Azərbaycan və Tacikistan münasibətləri regionda sabitliyin, iqtisadi tərəqqinin və qarşılıqlı etimadın təmin olunmasında mühüm nümunə kimi çıxış edir. MDB platforması isə bu əlaqələrin daha geniş miqyasda inkişafı üçün əlverişli beynəlxalq mexanizm olaraq qalır. Beləliklə, Düşənbə səfəri həm diplomatik, həm humanitar, həm də strateji baxımdan mühüm nəticələr doğurmuş, Azərbaycanın regional siyasətdə lider mövqeyini bir daha təsdiq etmişdir.

# Kənd təsərrüfatı - rəqəmlərin dili ilə

Kənd təsərrüfatı min illərdir bəşəriyyətin ən mühüm fəaliyyət sahələrindən biri olmuşdur. O, təkcə insanlara ərzaq təmin etməklə kifayətlənməyib, həm də mədəniyyətlərin, iqtisadiyyatın formalaşmasında həlledici rol oynamışdır. Bu gün də kənd təsərrüfatı həm sosial rifahın, həm də milli iqtisadi gücün əsas dayaqlarından biridir. Kənd təsərrüfatının tarixi minilliklərlə ölçülür. İlk əkinçilik fəaliyyətləri insanların ovçuluqdan oturaq həyata keçməsinə imkan yaratmışdır. Taxılçılıq, maldarlıq və bağçılıq insanları daha sabit həyat tərzinə gətirmiş, kənd təsərrüfatı isə icmaların əsas dayağına çevrilmişdir. Orta əsrlərdə kənd təsərrüfatı daha çox iqlim və torpaq şəraitindən asılı idi. Sənaye inqilabı ilə texniki vasitələr və gübrələr məhsuldarlığı artırdı. XX əsrdə yaşıl inqilab - seleksiya, mexanikləşmə və kimyəvi vasitələrin tətbiqi ərzaq istehsalında böyük sıçrayış yaratdı. Müasir dövrdə kənd təsərrüfatı həm ənənəvi, həm də yüksək texnoloji yanaşmalarla inkişaf edir. FAO-nun məlumatına görə, dünya üzrə kənd təsərrüfatı torpaqlarının ümumi sahəsi təxminən 5 milyard hektardır. Ən çox istehsal olunan məhsullar sırasında buğda, çəltik, qarğıdalı və kartof xüsusi yer tutur. Asiya çəltiyi, Latın Amerikası kakao və tropik meyvələri, Avropa isə taxıl və süd məhsulları ilə seçilir.

Dünya üzrə hər il orta hesabla 3,1 milyard ton taxıl, 2,3 milyard ton şəkər çuğunduru, 1,2 milyard ton tərəvəz, 1,0 milyard ton meyvə, 967,0 milyon ton süd, 369,6 milyon ton ət istehsal olunur. Bu rəqəmlər kənd təsərrüfatının ərzaq təhlükəsizliyindəki əvəzsiz rolunu təsdiq edir. Lakin qlobal miqyasda ciddi problemlər də mövcuddur. İqlim dəyişiklikləri, quraqlıqlar və sel hadisələri məhsuldarlığa mənfi təsir göstərir. Torpaqların deqradasiyası, su ehtiyatlarının azalması və zərərvericilərin sayının artması da kənd təsərrüfatı üçün böyük çağırışdır.

Azərbaycanda kənd təsərrüfatı: inkişafı təsdiq edən rəqəmlər. Azərbaycanda kənd təsərrüfatı inkişaf xətti üzrə irəliləyir. 2024-cü ildə kənd təsərrüfatının istehsalı əvvəlki illə müqayisədə 1,5 faiz artmışdır. Ümumi istehsalda bitkiçiliyin payı 47,4 faiz, heyvandarlığın payı isə 52,6 faiz təşkil etmişdir. Bu balans ölkədə ərzaq təminatının sabitliyini göstərir. Heyvandarlıqda 2024-cü ildə 659,0 min ton ət, 2298,5 min ton süd, 2300,8 milyon ədəd yumurta istehsal olunmuşdur. 2024-cü ildə 3278,1 min ton dənli və dənli paxlalı bitkilər, 1838,9 min ton tərəvəz, 1317,9 min ton meyvə və giləmeyvə toplanmışdır. Bu rəqəmlərin hər biri fermerlərin zəhmətini, torpağın məhsuldarlığını və bazarın ritmini əks etdirir.

Strateji qərarlar və statistikanın rolu. Kənd təsərrüfatı yalnız torpağı şumlamaq və məhsul toplamaqla ölçülmür. Bu sahənin gələcəyi rəqəmlərlə yazılır. Statistik göstəricilər olmadan məhsuldarlığın artıb-artmadığını, məhsul istehsalının yüksəlib-yüksəlmədiyini, bazar tələblərinin necə dəyişdiyini bilmək mümkün deyil. Dövlətin dəstək mexanizmləri: subsidiyalar, investisiyalar, yeni texnologiyaların tətbiqi sahəsində qərarlar məhz statistikaya əsaslanır. Hər hektarın məhsuldarlığı, heyvanların illik məhsuldarlığı və bazar ehtiyacları statistik rəqəmlərlə ölçülür və buna uyğun qərarlar verilir. Ərzaq təhlükəsizliyi də məhz bu rəqəmlərə əsaslanır.



Ölkəmizdə 2025-ci ilin 15 iyul - 15 avqust tarixlərində keçirilmiş kənd təsərrüfatının siyahıyaalınması nəticəsində təsərrüfatların istehsal fəaliyyəti, o cümlədən torpaqlardan istifadə və onların suvarılması vəziyyəti, istifadə edilən toxumların mənbəyi, gübrə və pestisidlərdən istifadə, cins heyvan və quşların sayı, istifadə olunan yemin növləri, akvakultura, kənd təsərrüfatı təyinatlı tikililər, işçi qüvvəsi və s. barədə aktual məlumatların əldə edilməsinə imkan yaratmışdır. Bütün bunlar müvafiq qərarların qəbul edilməsində mühüm informasiya mənbəyi kimi çıxış etməklə, bu sahədə statistik müşahidə və tədqiqatların, elmi araşdırmaların aparılmasında baza rolunu oynayacaq, eyni zamanda müvafiq statistik məlumatların beynəlxalq müqayisəliliyini təmin edəcəkdir.

Yeni dövrün çağırışı - rəqəmsallaşma və texnologiya. XXI əsrdə kənd təsərrüfatı getdikcə daha çox texnologiyaya söykənir. Rəqəmsal xəritələr əkin sahələrini izləyir, dronlar məhsulun vəziyyətini müşahidə edir, "ağıllı" suvarma sistemləri hər damla suya qənaət edir. Heyvanların İdentifikasiyası və Qeydiyyatı Sisteminin tətbiqi, süni intellektlə idarə olunan təsərrüfatların yaradılması statistik məlumatları daha da dəqiq edəcəkdir. Nəticədə kənd təsərrüfatı daha məhsuldar, daha rəqabətqabiliyyətli və daha dayanıqlı olacaqdır.

Torpaq, toxum, bitki və heyvan - kənd təsərrüfatının təməl elementləridir. Lakin bu sahənin əsl idarəetmə dili rəqəmlərdir. Rəqəmlər bu günümüzün güzgüsü, sabahımızın yol xəritəsidir. Onları düzgün oxumaq həm kəndlinin zəhmətini qiymətləndirmək, həm də ölkənin iqtisadi gücünü artırmaq deməkdir. Gələcəkdə ərzaq təhlükəsizliyi, ekoloji tarazlıq və dayanıqlı istehsal məhz bu rəqəmlərin dili ilə qurulacaqdır. Kənd təsərrüfatının sabahı yalnız torpaqda deyil, həm də statistik göstəricilərin işığında yazılacaqdır.

***Vüqar Vəliyev***
***Heyvandarlıq statistikası sektorunun müdiri***

# "Mədəni" evlilik, "sivil" ailə, "vətəndaş" nikahı və atasız uşaqlar

***Son 5 ildə Azərbaycanda 82 944 uşaq nikahdankənar doğulub. Dövlət Statistika Komitəsinin (DSK) rəsmi göstəricilərinə görə, 2024-cü ildə ölkədə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulanların sayı 13 228 olub. 2023-cü ildə isə qeyri-rəsmi nikahdan doğulan uşaqların sayı 15 622 təşkil edib. 2022-ci ildə 18814, 2021-ci ilə 17566, 2020-ci ildə isə 17714 uşaq qeyri-rəsmi nikahlardan doğulub.***

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Facebook social şəbəkəsindəki rəsmi hesabında nikahdankənar doğulan uşaqların sayındakı azalma son illərdə nikahdankənar doğulan uşaqların sayı ilə bağlı statistika ailə institutu sahəsində aparılan hüquqi islahatların təsirini və cəmiyyətin bu mövzuya dair sosial davranış modellərini əks etdirən mühüm göstəricilərdən biri hesab olunur.



Ailə, valideynlər və uşaqlardan ibarət ən kiçik sosial quruluşlu müəssisədir və cəmiyyəti təşkil edən institutların ən vacibidir. Ona görə də tarixən güclü ailə quruluşu, güclü cəmiyyət ilə assossasiya olunub. Əgər bir cəmiyyəti süquta uğratmaq, əxlaqi dəyərlərini gözdən salmaq, bütün mənəvi dəyərləri tapdamaq istəyirsənsə öncə ailədən başlamaq lazımdır.









Əslində ənənəvi azərbaycanlı ailəsindəki parçalanma, nəsillər arası fərqlər, boşanmaların çoxalması, vətəndaş nikahlarının və atasız uşaqların getdikcə artması bir qədər gözlənilən idi, çünki hadisələrin inkişafı bu sonu qaçınılmaz etmişdi. Lakin bu dərəcədə aşınma bir növ inqilab, çevriliş effektli oldu. Yəni biz bu həddi gözləmirdik, ona görə başımıza gələndə çaşdıq. Son 5 ilin 100 minlik nikahdankənar uşaq statistikası bizə "şok" effekti verdi.

"Şok" effekti yaşasaq da bir çoxmuz bu nəticənin olacağını əxlaqsızlığın adını, donunu, tərkibini dəyişib "vətəndaş nikahı" dedikləri vaxtdan proqnozlamışdıq. Vətəndaş nikahı adlanan vəziyyət, iki şəxsin heç bir dövlət və yaxud qeyri-dövlət orqanı ilə razılaşdırmadığı, rəsmi təsdiqi olmayan könüllü ittifaqıdır. Ona görə ittifaq deyirəm ki, onlar ailə olaraq tanınmırlar. Onları yalnız münasibətləri birləşdirir, bu münasibətləri təsdiqləyən heç bir hüquqi sənədləri yoxdur. Buna görə də dövlət onları ailə kimi qəbul etmir. Bu gün gənclərin isti baxdığı bu ittifaq bir yerdə yaşamaq, bir evi paylaşmaq, hətta dünyaya uşaq gətirmək kimi öhdəliklər yerinə yetirir.

Nikahdankənar doğulan uşaqların gələcəkdə alimentlə bağlı problemlərinin həll edilməsi də atalığının tanınması məsələsindən asılıdır. Əvvəl uşağın atası müəyyənləşdirilməlidir, dövlət qeydiyyatına alınmasından sonra atadan aliment tutulması üçün məhkəməyə müraciət oluna bilər. Əks təqdirdə uşağın xeyrinə aliment tutulması məsələsi iddia qaydasında məhkəmə baxışının predmeti ola bilməz. Təsəvvür edirsiniz? Qadın öz uşağının atasının kim olduğunu bildiyi halda yenə də bunu müəyyənləşdirmək üçün hüquqi prosedurlardan keçməlidir. Niyə? Çünki rəsmi nikah olmadan dünyaya uşaq gətirib.

Vətəndaşı nikahı adı qədər məsum vəziyyət deyil. Ona hər ölkədə bir cür ad veriblər, "mədəni evlilik", "sivil evlilik" kimi məsələn. Maraqlıdır ki, hamısında da humanist ifadələr seçilir. Bizim ölkədə də illərdir müəyyən qüvvələr tərəfindən vətəndaş nikahının təbliğatı aparılır, gənclərin nikaha daxil olmadan birlikdə yaşaması, cinsi münasibətdə olması açıq-aşkar təbliğ edilir.

Bunun nəticəsidir ki vətəndaş nikahı 10 il əvvəl nadir rastlanan vəziyyət idisə, bu gün normal qarşılanır ölkəmizdə. Tanınmışlar, məşhurlar çıxır efirdə vətəndaş nikahının normal olduğunu, evli sevgilisindən dünyaya uşaq gətirdiyini deyir. Televiziyalar əxlaqsızlığı təbliğ edir, utanmadan, qızarmadan, normalmış kimi. Atasız uşaqlar, anasının himayəsində böyüyən körpələr artır və bunun adını vətəndaş nikahı qoyurlar.

Ailə anlayışı bu qədər cılızlaşdısa bunun arxasında efir, telekanallar, dırnaqarası sosial layihələr dayanır. O verilişlərlə qızlara asi olmağı, ərli qadınlara evdən qaçmağı öyrətdilər, evli kişilərin subay qız qaçırmasını, ensest münasibətləri normallaşdırdılar. Birbaşa yox, dolayı yollarla. Üsulluca, kirmişcə, lap pambıqla baş kəsmək kimi. Məşhur similar çıxıb efirdə evil kişidən uşaq doğduğunu rahatca dedi, nikahı olmadığı halda uşağının başqa bir qadınla evil olan, ayrı ailəsi olan atasını efirlərdə "həyat yoldaşımdır" deyərək qələmə verdi, uşağının nikahdankənar doğulduğunu rahatlıqla söylədi. Bunu minlərlə, minlyonlarla adam dinlədi, izlədi və anormal vəziyyət beləcə yavaş-yavaş normallaşdı.

Bir narahatedici vəziyyət də var ki, bizim cəmiyyətdə ailə qurmaq, evlənmək deyəndə toy edilib nümayişkaranə gəlin getmək, gəlin gətirmək başa düşülür. Əgər gəlinin belinə qırmızı bağladınsa, xonça oynatdınsa, 500 nəfərin önündə toy etdinsə rəsmi nikaha ehtiyac duyulmur, gənclər qanuni ailə sayılır. Ən böyük səhv də burdan başlanır. Gənclər toy edir, bir evdə vətəndaş nikahında yaşamağa başlayır, övladları dünyaya gəlir, ya uşaq pulu almaq üçün sənədə ehtiyac olanda, ya da uşaq məktəbə gedəndə rəsmi nikah yada düşür. Bu vaxtadək ailədə doğulan uşaqlar qeyri-rəsmi yolla, nikahdankənar doğulmuş hesab edilir.

Araşdırsaq görərik ki, rəsmi nikahı olmayan ailələrdə ya hər iki tərəf, ya da qadın yetkinlik yaşına çatmamış evləndirilib. Azərbaycan qanunlarına görə 18 yaş nikah yaşı hesab edilir, amma bəzi bölgələrimizdə 13-15 yaşda belə qızlar evləndilir, bu halda rəsmi nikah üçün müraciət edə bilməzlər, qanunla cinayət məsuliyyəti daşıdıqlarını bilirlər. Belə vəziyyətlərdə dini nikahla məsələni bitmiş hesab edirlər.

Bir başqa problem isə ailələrin və gənclərin dini nikahı rəsmi nikahdan daha üstün hesab etməsi məsələsidir. Məsələ ondadır ki, ailə böyükləri toyqabağı gəncləri dini nikaha girməyə məcbur etdikləri qədər rəsmi nikah tələbini dilə gətirmirlər. Azərbaycan dünyəvi dövlətdir və ailənin dövlət tərəfindən qanuni tanınması üçün rəsmi nikah şərtdir. Əks halda dövlət o ailəni tanımır, orda doğulan uşaqlara görə hər hansı maddi öhdəlik daşımır. Uşaqlar üçün verilən müavinətlər də bu səbəbdən rəsmi nikahı olan ailələr üçün nəzərdə tutulub. Bu məsələdə din xadimlərinin məsuliyyəti də əhəmiyyətli dərəcədə rol oynayır. Belə ki, dini nikah üçün müraciət edənlərin rəsmi nikah şəhadətnaməsini tələb etsələr problem qismən də olsa aradan qalxar.

Bir sözlə, qeyri-rəsmi münasibətləri, bu münasibətlərdən doğulan uşaqları, nikahsız yaşamağı normallaşdırmağa verilən addır "vətəndaş nikahı" ifadəsi. Adını nə qoyurlar qoysunlar, yumşaltmağa, suvaq vurmağa çalışsalar da mahiyyəti eynidir - qanundankənar, qəbul edilməyən. Nikahdankənar doğulan uşaqların hüququnu doğulmadan pozmaq isə ona ediləcək ən böyük pislikdir. Övladına bu adla doğulmağı rava görənlər, nikahsız dünyaya uşaq gətirənlər üçün bu nə qədər əhəmiyyətlidir, orası müəmmalıdır.

***Lalə Mehralı***

# Bədən, məlumat və ruhun yeni dövrü

***XXI əsrin sosial düşüncəsi insanın öz varlığını yenidən sorğuladığı bir mərhələyə qədəm qoyub. Texnologiyanın, biotexnologiyanın, süni intellektin və ekoloji böhranların sürətlə inkişaf etdiyi bu dövrdə "insan" anlayışı artıq əvvəlki kimi dünyanın mərkəzində dayanmaq gücünü itirir. Modern dövrün insan mərkəzli dünyagörüşü (yəni humanizm) əsrlər boyu insanı yaradıcı, ağıl sahibi və ali varlıq kimi qəbul etmişdi. Lakin bu baxış bucağı tədricən həm fəlsəfi, həm də sosial səviyyədə tənqid olunmağa başladı. İnsan öz yaratdığı texnologiyanın, iqtisadi sistemlərin və ekoloji nəticələrin qarşısında artıq "hakim" deyil, bəzən "vasitə" və ya "məhsul" halına gəlmişdir.***






Məhz bu yeni düşüncə tərzi posthumanizm adlanır. "Post" ön şəkilçisi burada "sonra" mənasında deyil, "kənara çıxmaq", "fərqli baxmaq" mənasını daşıyır. Posthumanizm insanı kainatın mərkəzindən çıxararaq onu texnologiya, heyvanlar, ekosistemlər və süni zəka ilə birgə mövcud olan kompleks varlıq kimi nəzərdən keçirir. Yəni posthumanizmdə "insan" artıq tək subyekt deyil, bioloji, texnoloji və ekoloji əlaqələrin kəsişmə nöqtəsidir.

Bu anlayışın əsas fəlsəfi təməlini qoyanlardan biri Rosi Braidottidir. O, "The Posthuman" (2013) əsərində qeyd edir ki, humanizmin dağılması təkcə fəlsəfi dönüş deyil, həm də etik məsuliyyətin genişlənməsidir. Çünki indi məsələ yalnız insanın rifahı deyil, bütün canlı və qeyri-canlı varlıqların qarşılıqlı asılılığıdır. Bu fikir cəmiyyətin özünü təşkil etmə formalarını da dəyişir. Əmək münasibətlərindən tutmuş kimlik quruluşuna qədər hər sahədə insanın rolu yenidən düşünülür.

Beləliklə, posthumanizm təkcə bir fəlsəfi axın deyil, həm də sosial reallığın yeni tənzimləmə forması kimi çıxış edir. Bu məqalədə posthumanist düşüncənin texnologiya, bədən, ekoloji etika və sosial kimlik üzərində yaratdığı dəyişikliklər təhlil ediləcək. Məqsəd, insan sonrası dövrdə cəmiyyətin necə formalaşdığını, sosial münasibətlərin və dəyərlərin hansı istiqamətdə yenidən qurulduğunu anlamaqdır.

## Posthumanizm və texnologiya

Texnologiyanın həyatın bütün sahələrinə sirayət etdiyi XXI əsrdə, insan artıq yalnız texnologiyanı istifadə edən varlıq deyil, həm də onunla birlikdə mövcud olan varlıqdır. Sosial münasibətlər, əmək formaları, emosional bağlar və hətta kimlik anlayışı belə texnoloji vasitələrin təsiri altında yenidən formalaşır. Bu yeni vəziyyət, posthumanist baxışın cəmiyyətə yönəlik ən bariz nümunələrindən biridir.

Posthumanist yanaşma texnologiyanı insanın təbii davamı kimi görür. Donna Haraway öz məşhur "A Cyborg Manifesto" (1985) əsərində qeyd edirdi ki, insan artıq texnologiyadan ayrılmaz varlıqdır, "cyborg" yəni canlı və mexaniki sistemlərin sintezi halına gəlmişdir. Haraway-ın fikrincə, texnologiya bədənlə birləşərək onu həm gücləndirir, həm də dəyişdirir. Nəticədə "təbii" və "süni" arasındakı sərhədlər tədricən itir.

Bu ideya bu gün sosial həyatda açıq şəkildə görünür. Məsələn, süni intellektlə yaradılmış virtual şəxsiyyətlər artıq real insanlarla eyni səviyyədə sosial əlaqələr qurur. 2016-cı ildə yaradılmış Lil Miquela adlı virtual modelin milyonlarla izləyicisi var və o, moda brendləri ilə əməkdaşlıq edir, sosial məsələlər haqqında paylaşımlar edir. Maraqlısı odur ki, bir çox insanlar bu virtual varlıqla emosional bağ qurduqlarını bildirirlər. Bu fakt, posthuman dövrdə emosiyanın və şəxsiyyətin texnoloji simulyasiyasının necə gerçək sosial dəyərə çevrildiyini göstərir.

Eyni zamanda, texnologiyanın cəmiyyətə inteqrasiyası əmək münasibətlərini də dəyişdirir. Avtomatlaşdırma və süni intellekt sistemləri bir çox sahələrdə insan əməyini əvəz edir. Shoshana Zuboff "The Age of Surveillance Capitalism" (2019) əsərində bu prosesi "məlumat kapitalizmi" adlandırır və qeyd edir ki, insan artıq əmək subyekti yox, məlumat mənbəyinə çevrilir. Hər bir klik, baxış və mesaj sosial platformalar üçün iqtisadi dəyərə malikdir. Bu, insanın sosial varlıqdan "məlumat varlığına" keçidi deməkdir. İnsan öz fərdiliyini iqtisadi sistemin bir alqoritmik hissəsinə çevrilmiş formada yaşayır.

Bu dəyişikliklər təkcə iş dünyasında deyil, emosional münasibətlərdə də özünü göstərir. Sosial şəbəkələrdə insanın kimliyi, duyğuları və hətta sosial dəyəri artıq rəqəmsal göstəricilərlə, izləyici sayı, bəyənmə, paylaşım kimi metriklərlə ölçülür. Bu isə sosial kapitalın yeni formasını yaradır. İnsan "real" varlıq kimi deyil, rəqəmsal performans kimi dəyərləndirilir.

Bütün bu proseslər göstərir ki, posthuman dövrdə texnologiya sadəcə alət deyil, sosial münasibətlərin aktiv iştirakçısıdır. İnsanla texnologiya arasındakı əlaqə qarşılıqlı asılılıq üzərində qurulub. İnsan texnologiyanı yaradır, amma eyni zamanda texnologiya da insanı formalaşdırır. Beləliklə, posthumanizm texnologiyanı cəmiyyətin kənarında deyil, onun sosial orqanizminin bir hissəsi kimi dəyərləndirir. Bu baxış, həm etik, həm də sosial baxımdan yeni suallar doğurur ki, texnologiya insanı azad edir, yoxsa onu görünməz nəzarət mexanizmlərinə tabe salır?

## Bədən, biotexnologiya və sosial etika

Posthuman dövrdə insan bədəni artıq sabit, dəyişməz və "təbii" varlıq kimi deyil, davamlı şəkildə yenidən qurulan sistem kimi dəyərləndirilir. Biotexnologiyanın inkişafı, gen mühəndisliyinin və "biohacking" təcrübələrinin genişlənməsi bədən anlayışını həm elmi, həm də sosial səviyyədə problematik hala gətirib. Bədən indi yalnız bioloji orqanizm deyil, sosial, texnoloji və etik münasibətlərin mərkəzidir.

Bu dəyişimin kökündə insanın öz bədəninə müdaxilə imkanlarının artması dayanır. Genetik redaktə texnologiyaları, protez sistemləri, beyin interfeysləri və bioloji implantlar insanın bədənini həm sağlamlaşdırmaq, həm də "təkmilləşdirmək" məqsədilə istifadə olunur. Lakin bu cür müdaxilələr "təkmilləşmiş bədən" ideyasını sosial iyerarxiyaya çevirir. Texnologiyaya çıxışı olanlar daha "yaxşı bədənlərə" sahib olur, bu isə bədən üzərindən sosial bərabərsizliyin yeni formalarını yaradır.

Rosi Braidotti "Posthuman Feminism" (2022) əsərində qeyd edir ki, posthuman dövrdə qadın bədəni həm texnoloji istehsalın, həm də etik mübahisənin mərkəzində dayanır. Texnologiyanın bədənə müdaxiləsi qadın azadlığının göstəricisi kimi təqdim olunsa da, eyni zamanda bu müdaxilələr qadın bədənini yenidən nəzarət obyektinə çevirir. Məsələn, doğumun tibbiləşməsi, hormonal balansın texnoloji nəzarətə alınması və kosmetik cərrahiyyənin kütləviləşməsi qadının bədənini sanki ictimai gözləntilərin laboratoriyasına çevirir.

Müasir dövrdə sosial medianın və bədən estetikasının yaratdığı "ideal görünüş" anlayışı da bu müzakirələrin bir hissəsidir. Filtrlərlə, rəqəmsal dəyişikliklərlə formalaşan bədən obrazları "süni gözəlliyin" yeni normal halına çevrilib. Bədən artıq real bioloji varlıqdan çox, rəqəmsal istehsalın məhsulu kimi qavranılır. Beləliklə, insan bədəni həm texnoloji, həm iqtisadi, həm də estetik istehsalın obyektinə çevrilir. Bu proses etik suallar doğurur. Texnologiya bədəni azad edir, yoxsa onu yeni bir nəzarət forması altına salır? Bədənə müdaxilələr tibbi ehtiyacdan çox sosial gözləntiləri yerinə yetirmək üçündürsə, insan öz bədəninin sahibi olaraq qalırmı?

Posthumanizm bu suallara cavab axtararkən bədəni yalnız bioloji konstruksiya kimi deyil, siyasi və sosial diskursun bir forması kimi görür. Bədən üzərində hakimiyyət, əslində, sosial sistemlərin insanı necə formalaşdırdığının göstəricisidir. Beləliklə, texnologiya bədəni dəyişdirdikcə, bədən də cəmiyyətin etik sərhədlərini yenidən müəyyənləşdirir.

## İnsan və planet arasındakı yeni etika

Posthumanizm təkcə texnologiya və bədən anlayışını deyil, həm də insanın təbiətə münasibətini köklü şəkildə dəyişdirir. Əsrlər boyu davam edən humanist dünya baxışı təbiəti insanın istifadəsinə verilmiş passiv bir obyekt kimi qəbul edirdi. Bu düşüncə tərzi nəticəsində insan özünü "planetin sahibi" kimi görməyə başladı. Lakin XXI əsrdə ekoloji böhran, iqlim dəyişiklikləri, kütləvi ekosistem itkiləri və texnoloji istehsalın fəsadları göstərdi ki, insan nəzarət etdiyi sistemin içində hakim deyil, iştirakçıdır.

Ekoloji posthumanizm məhz bu nöqtədə meydana çıxır. O, insanı mərkəzdən çıxararaq ekosentrik bir baxış təklif edir. Yəni bütün canlı və qeyri-canlı varlıqların bir-biri ilə əlaqədə olduğu, qarşılıqlı asılılıq üzərində qurulmuş varlıq anlayışı. Bu yanaşma təkcə ekologiyanı deyil, sosial məsuliyyət anlayışını da dəyişdirir. Məsələ artıq "təbiəti qorumaq" deyil, təbiətlə birgə yaşamaq prinsipini formalaşdırmaqdır.

Rosi Braidotti "The Posthuman" (2013) əsərində qeyd edir ki, insanın ekoloji varlıq kimi dərk olunması həm etik, həm də siyasi dönüş tələb edir. İndi əsas məsələ "insanın rifahı" deyil, planetin bütöv rifahıdır. Bu baxış sosial elmlərin özündə də yeni suallar doğurur. Əgər insan tək mərkəz deyilsə, o zaman sosial ədalət və məsuliyyət anlayışları necə dəyişəcək?

Günümüzdə bu yanaşmanın real nümunələrini müşahidə etmək mümkündür. İqlim fəallığı hərəkatları, xüsusilə də gənc nəsil tərəfindən idarə olunan kampaniyalar məsələn, Greta Thunberg-in "Fridays for Future" təşəbbüsü posthumanist düşüncənin sosial ifadəsidir. Bu hərəkatlar insanı mərkəzdən çıxarıb, planetin səsini önə çəkir. Artıq "biz nə yeyirik, nə istehsal edirik, necə yaşayırıq" sualları sadəcə şəxsi məsələ deyil, planetin etik koduna çevrilib.

Bununla yanaşı, süni intellekt və texnologiyanın ekoloji izləmə sistemlərində istifadəsi də posthumanist baxışın praktik nümunəsidir. Məsələn, Amazon meşələrində dron texnologiyası ilə ağac kəsimlərinin izlənməsi və canlı növlərin qorunması artıq insan nəzarətindən çox texnoloji ekosistemin tənzimlədiyi prosesə çevrilib. Burada süni intellekt, insan və təbiət ortaq agentlər kimi fəaliyyət göstərir.

Ekoloji posthumanizm həm də insanın təbiətə verdiyi zərərin mədəni dəyərlərlə necə əlaqəli olduğunu göstərir. Məsələn, istehlakçılıq, sürətli moda (fast fashion) və "inkişaf" anlayışının kapitalist məntiqi əslində planetin resurslarını tükəndirən sosial davranış formalarıdır. Posthumanizm bu davranışları tənqid edərək etik istehlak, qeyri-insan varlıqlara empatiya və ekoloji ədalət kimi yeni dəyərləri önə çıxarır.

Ekoloji posthumanizmin əsas çağırışı budur ki, insan özünü kainatın mərkəzində deyil, planetar sistemin bir hissəsi kimi qəbul etməlidir. Bu həm etik, həm sosial, həm də mədəni məsuliyyətin yenidən qurulması deməkdir. Planetin taleyi artıq yalnız "ekoloji" məsələ deyil, sosial ədalətin və kollektiv varoluşun məsələsidir. Beləliklə, posthuman dövrdə ekologiya və sosiallıq bir-birindən ayrılmaz hala gəlir. İnsan təbiətdən üstün deyil, onunla bərabərdir. Bu yeni baxış, həm ekoloji siyasətin, həm də sosial düşüncənin əsas istiqamətini müəyyənləşdirir. Bərabər mövcudluq etikası.

***Nigar Şahverdiyeva***
***Sosioloq, araşdırmaçı yazar***

# Qlobal maliyyə sistemində nə baş verir? Qızıl erasında partlayacaq sabun köpüyü

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*



**Dünya maliyyə sistemində fundamental dəyişikliklərin sürətlənməsi qlobal bank və birjalarda təlatümlər yaradır. Son dövrlərdə iri dövlətlərin durmadan qızıl alması və öz ehtiyatlarını qızıla çevirməsi, həmçinin Rusiya, Çin, Hindistan, İran, Braziliya, CAR və s. Ölkələrin qarşılıqlı əməliyyatlarda dollardan imtina edərək öz valyutalarına keçməsi dolların qlobal hegemonluğuna son qoymaq üzrədir.**

Son illərdə bu prosesə qoşulan ölkələr, xüsusən, Çin və Rusiya böyük həcmdə qızıl alışı həyata keçirib və qızılın qiymətinin fasiləsiz bahalaşması fonunda öz aktivlərinin dəyərini xeyli artırıb. Getdikcə daha çox ölkə rezervlərini qızıla çevirir və bu da arxasında heç nə dayanmayan, boş kağız kütləsinə çevrilmiş olan dolların qlobal valyuta statusunu məhv edir.

Bu ilin ilk yarısında qızıl alışında liderlər sırasında Rusiya (4,75 ton), Avstraliya (3,99 ton), ABŞ (3,35 ton), Qazaxıstan (2,56 ton), Böyük Britaniya (2,77 ton) var.

Qlobal bank və birja maxinasiyalarından ən çox əziyyət çəkən və dollardan imtinaya start verən Rusiyanın külçə qızıl ehtiyatlarını artırmaq strategiyası öz bəhrəsini verib və ölkə bundan uğur qazandı. Rusiya iri həcmdə qızıl alışına başladıqdan- 2006-cı ildən sonra onun qiyməti demək olar ki, 850 faiz artıb. Beləliklə, Rusiya öz rezervlərinin dəyərini dəfələrlə artırmış oldu və maliyyə sabitliyini sığortaladı. Ölkənin 2326,5 tonluq qızıl ehtiyatı hazırda 302 milyard dollardan çox qiymətləndirilir.

Çin və Hindistanda da təxminən belə etdi. Artıq ölkələrin qlobal fondlarda dollar və avroda saxladıqları vəsaitlər geri çəkilərək qızıla yatırılır. Nəticədə son həftədə qızılın qiyməti bir unsiya üçün 4000 dolları ötüb və ekspertlər indi onun qısa müddətdə 5000 dollara çatacağını gözləyirlər.

Lakin qlobal "qızıl qızdırması"nın yeni dalğası təkcə iqtisadi deyil, həm də siyasi əhəmiyyətə malikdir. Belə ki, qlobal rezerv valyutaların sahibi olan Qərb koalisiyası bundan özlərinə tabe olmayan ölkələrə qarşı təzyiq vasitəsi kimi istifadə edirlər. Bundan ən çox zərər çəkən də Rusiyadır. Rusiyada qarşı saysız-hesabsız sanksiyalar



tətbiq edən Qərb onun qlobal valyuta əməliyyatlarını məhdudlaşdırmağa çalışır. Lakin bu ölkə beynəlxalq hesablaşmalarda alternativ valyutalara keçməyə və rezervlərini qızıla çevirməyə başlayandan sonra bu təzyiq üsulları effektlivliyini itirib.

Rusiya bu syasəti uzaqgörənliklə həyata keçirdi. Artıq 2006-cı ildə aydın idi ki, Rusiya Qərb gərginliyi artır və ehtiyatların bir hissəsi risk altındadır. Həmin ildən etibarən Rusiya Mərkəzi Bankı qızılın xalis satıcısından xalis alıcıya çevrildi və dünyada ən böyük ehtiyatlarından birini topladı.

Krım Rusiyanın tərkibinə keçdikdən sonra Rusiya ABŞ dövlət xəzinədarlıq istiqrazlarını sürətlə və tam qurtarana qədər aktiv şəkildə satmağa başladı.

Qızılın qiymətini şərtləndirən əsas amillər mərkəzi bankın metal alışlarının artması, həmçinin pərakəndə pul vəsaitlərinin birja fondlarına rekord axınıdır.

Buna həftədə 7 milyard dollar itirən ABŞ hökumətinin bağlanması və nüvə elektrik stansiyalarına pilotsuz təyyarələrin hücumları da daxil olmaqla Ukraynada artan hərbi münaqişə də əlavə edilib. Bütün bunlar stress yaradır, investorların daha çox qızıla sığınmasına, portfellərini yenidən təşkil etməsinə səbəb olur.

Ölkələrin strateji rezervlərinin Qərb fondlarında saxlanması çox təhlükəlidir. Qərb istənilən vaxt müxtəlif bəhanələrlə bu vəsaitlərə əl qoya bilər. Yaxın tarix bunun nümunələri ilə doludur. Tabe olmayan ölkələrin (Rusiya, Türkiyə, Venesuela və s) rezervlərinin qaytarılmasından müxtəlif bəhanələrlə imtina edilir.

Məhz bu səbəbdən strateji düşünən dövlətlər öz rezervlərini qızıla çevilib öz ölkələrində saxlamağa çalışır. Bugünkü reallıqda qızılın əsas üstünlüyü ondan ibarətdir ki, o, fiziki olaraq Qərb ölkələrinin əli çatmayan yerdə saxlanılır. Rusiya və Çin də belə edir.

Çin Rusiyanın qızıl strategiyasına daha sonra qoşuldu: o, yalnız 2020-ci ildən sonra aktiv şəkildə ABŞ xəzinələrini dempinq etməyə və qızıla investisiya qoymağa başladı. Çinin ABŞ xəzinədarlığına bir trilyon dollardan çox sərmayə qoyduğu tarixi maksimumdan sonra, proses geriyə doğru getdi-indi bu, 700 milyard dollardan azdır, yəni



üçdə biri artıq satılıb. Bu pulun bir hissəsi qızılda saxlanır. Qiymətli metalllar əlbəttə, təkcə qızıl deyil, həm də son vaxtlar qiyməti rekordlar qıran gümüş və platin və s. də var.

Çinin yeni siyasəti ölkəni qızılın saxlanma mərkəzinə çevirməkdir. Pekin həmçinin yuanı qızıla bağlamaq və onun möhkəm və dəyərli valyuta kimi qəbul etmək siyasəti yürüdür. Rusiya da eyni yolla gedir. Nəticədə Qərbdən edilən çoxsaylı maxinasiyalara və təzyiqlərə baxmayaraq rublun məzənnəsi aşağı düşmür.

Bundan başqa, ölkənin qızıl ehtiyatının çox olması onun iqtisadi və maliyyə dayanıqlılığını göstərir və bu da investorları da cəlb edir. Nəticədə iqtisadi aktivlik artır, ÜDM-in artımı baş verir.

Qızıla investisiya edən ölkələrin böyük gəlirlər əldə edəcəyi şübhəsizdir. Qızıl sürətlə bahalaşır və uzağı gələn unsiya üçün 5 min dollara çatacağına analitiklər şübhə etmir.

Bu vəziyyət ABŞ və bəzi Avropa ölkələrindən başqa bütün ölkələrə sərfəlidir. ABŞ-da və Avrozonada isə prosesi həyəcanla izləyirlər- bu, dolların və avronun çökmə prosesi kimi qəbul olunur. Yalnız qərb dövlətlərinin mənafelrini təmin etmək üçün qurulmuş qlobal maliyyə sistemi dağılır. Dünyanın siyasi, iqtisadi, hərbi və maliyyə cəhətdən güc mərkəzi Şərqə keçir.

Qızıla üz tutan əsas bazar iştirakçıları arasında mövcud maliyyə sisteminə dərin inamsızlıq var. Yeni qlobal valyutanın yaradılması üçün işlər aparılır- ola bilsin ki BRİCS-in vahid valyutası dövruiyyəyə buraxılsın. Burada çoxlu texniki problemlər olsa da, bunun baş verməsi mümkündür. Hansısa qızıl əsaslı valyuta səbəti və ya bir növ rəqəmsal valyuta əsasında bunu etmək olar.

Hər bir halda hazırkda dünyada iqtisadi və maliyyə sabitsizliyi dövrü başlayır. Daha doğrusu mövcud qlobal sistemdə. Çökməkdə olan köhnə sistemin sürətlə yeniə sistemnləm əvəzlənməsi baş verə bilər. Artıq Qərb koalisiyası əllərində olan maliyyə-bank-birja sistemi vasitəsilə istədikləri var valyutaların məzənnəsini dəyişərək və qlobal əmtəələrin qiymətlərini dəyişərək digər ölkələrin sərvətlərini və pullarını talaya bilməyəcək.

Ümumiyyətlə, bir ölkənin ehtiyatlarının başqa ölkədə saxlanması axmaq fikir idi və bu ABŞ və bir neçə Qərbi Avropa ölkəsindən başqa heç kimə sərf etmir. Bu rezervlər ortalama 1 faizlə yerləşdirilir, lakin həmin ölkələr bu vəsaitləri dövriyyəyə daxil edərək 5-10 qat artıq gəlir əldə edirlər. Hər ölkənin rezervi özündə saxlanmalıdır və mövcud qeyri-stabil qlobal situasiyada bundan təhlükəsiz variant yoxdur. Ona görə də ağıllı hökumətlər rezervləri qızıla çevrilib ölkəyə gətirir, xaricə yönəltdiyi imnvestisiyaları isə öz ölkəsinə sərmayə edərək iqtisadiyyatı gücləndirməyə çalışırlar.

Azərbaycan da son illərdə rekord qızıl alışları həyata keçirib və ehtiyatlarının əhəmiyyətli bir hissəsini qızılda saxlamağa çalışır. Dünya Qızıl Şurasının (WGC) hesabatında deyilir ki, qızıl alışına görə Azərbaycan dünyanın ilk 5 ölkəsi sırasındadır. Son 1 ildə ölkəmizin qızıl ehtiyatı təxminən 25 faiz artıb və hazırda 180 ton civarındadır. 2025-ci ilin ilk yarımilində Azərbaycan 3 milyard dollar dəyərində 35 ton qızıl idxal edib. Bu əvvəlki ilin müvafiq dövrünə nisbətən dəyərdə 5 dəfə, həcmdə 4 dəfə yüksəkdir!

Lakin hələ də Neft Fondunun rezervləri əsasən dollar və avroda saxlanılır. Mümkün qədər tez və daha çox həcmdə qızıla, gümüşə çevrilməsinə və ölkəyə gətirilməsinə ehtiyac var. Bir neçə il əvvələdək Fondun rezerv portfelində qızılın payı 1 faizə çatmırdı. Hazırda Neft Fondunun ehtiyat portfelində qızılın payı 30 faizə yaxındır.

Yeri gəlmişkən, ötən il Azərbaycanda 2663 kiloqram qızıl istehsal edilib. Ölkə daxilində yanvar-iyun aylarında çıxarılan qızıl isə



cəmi 1,6 ton olub, deməli ilin yekununa qızıl istehsalı 3 tonu keçəcək. Həm istehsal, həm də idxalın artması müsbət tendensiyadır. Hazırki qlobal şəraitdə ən etibarlı rezerv qızıl olaraq qalır. Ona görə də, elə öz istehsalımız olan qızılı alaraq strateji rezerv kimi saxlamaq daha təhlükəsiz olar, nəinki həddən artıq şişirdilmiş və tezliklə partlayacaq sabun köpüyü olan dolları.

***Elçin Bayramlı***

SƏS
15 oktyabr
2025-ci il

# Supermarketlərin qiymət oyunu: fırıldaq, yoxsa məsuliyyətsizlik?



## EKSPERT AÇIQLADI

“Mağazalarda və supermarketlərdə vitrində bir qiymət, ödəniş edərkən isə tamam başqa qiymətin olması təbiiki istehlakçı hüquqlarının pozulmasıdır”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Xalid Kərimli bildirib. Onun sözlərinə görə, bu kimi hallar aradan qaldırılmalıdır: ”Təbii ki, supermarketlərin belə hallarda müştəriləri aldatmaq kimi niyyətləri yoxdur. Supermarketlər şəbəkələrinin yüzlərlə filialları olur və qiymətlər baş ofis tərəfindən müəyyən olunur. Filiallarda bəzən işçi çatışmamazlığından və mövcud əməkdaşların məsuliyyətsizliyindən qiymət dəyişərkən vitrində qiymət vaxtında yenilənmir. Nəticədə müştərilər belə hallarla qarşılaşırlar.

Belə hallarda müştərinin məhsulu vitrində gördüyü, yəni aşağı qiymətlə almaq hüququ var. Supermarketin qiyməti vaxtında dəyişməməsi müştərinin günahı deyil. Supermarket məhsulu müştərinin vitrində gördüyü qiymətə satmaqdan imtina edərsə, ən azından öz imicini qorumaq üçün məhsulu müştəridən geri qaytarmalıdır. Supermarket məhsulu geri qaytarmaqdan imtina edərsə istehlakçı Prezident yanında Antiinhisar siyasəti və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə şikayət etməlidir.

Vətəndaş bu quruma şikayət edib aldadıldığını sübut edib həmin supermarketin cəzalandırılmasına nail ola bilər. Vətəndaş Antiinhisarın şikayətinə baxmasından narazı olarsa o zaman məhkəməyə müraciət edib ona dəymiş zərərin ödənilməsinə nail ola bilər”.

*İlkin Məmmədkərimov*


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Dünya sürətlə yoxsullaşır - BMT xəbərdarlıq etdi!



Dünyada yoxsullaşma sürətlə artır. BMT-nin ticarət və inkişaf agentliyi - UNCTAD nazirlərin son dörd ildəki ən böyük toplantısı üçün Cenevrədə bir araya gəlməzdən bir həftə əvvəl bununla bağlı xəbərdarlıq edib.

Məlumatda deyilir ki, dünyanın ən yoxsul icmaları ticarət qeyri-müəyyənliyi, ağır borc yükləri və sərmayələrin azalması ilə daha çətin vəziyyətə düşür.UNCTAD oktyabrın 20-dən 24-dək İsveçrədəki iclasda ticarətdə proqnozlaşdırılma imkanlarını bərpa etmək, borc təzyiqlərini azaltmaq və real iqtisadiyyata birbaşa investisiya qoymaq üçün praktiki yollar axtaracaq.

# 55 min dollarlıq saat taxan prezident sosial mediada “topa tutuldu”...

Suriyanın prezidenti Əhməd əş-Şaraa yenə müzakirə mərkəzinə çevrilib. Bu dəfə qoluna taxdığı bahalı saatlarla. Suriya liderinin son günlərdə təxminən 55 min dollar dəyərində olan ”Patek Philippe World Time Chronograph Ref. 5930G” markalı saatla çəkilmiş görüntüləri ölkəsində ciddi narazılıq yaradıb. Sosial media istifadəçiləri prezidenti ”xalqın vəziyyətindən uzaq olmaqda” və ”lüks həyat tərzi sürməkdə” ittiham ediblər.



Nüfuzlu xarici KİV-lərin yazdığına görə, lüks brendin 2016-cı ildə təqdim etdiyi bu model, dünya vaxtı funksiyasını xronoqraf mexanizmi ilə birləşdirən ilk müasir dizayn kimi tanınır. Qeyd olunur ki, saatın gövdəsi ağ qızıldan hazırlanıb və yüksək dəqiqlikli mexaniki sistemə malikdir.

## ELAN

FHN-nin Yanğından Mühafizə Xidmətinin əməkdaşı Məlikov Orxan Ərəstun oğlunun 1023509 A nömrəli vəsiqəsi, Mersedes Benz 200 markalı 10 OF 128 dövlət nişan nömrəli minik avtomobilinin BD527206 nömrəli texniki pasportu itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000